# Qitələr



http://www.kitablar.com
http://www.kitablar.org/

Nəsimi

Bir cəfakeş aşiqəm, ey yar, səndən dönməzəm,
Xəncər ilə yürəgimi yar, səndən dönməzəm.

Dönməzəm cövrü cəfadən, xəstə könlüm mərhəmi,
Min cəfa qılsan mənə, ey yar, səndən dönməzəm.

Müshəfi-hüsnün həqiyçin, ey dilaramım mənim,
Necə kim, bu təndə canım var, səndən dönməzəm.

Ey xəstə könül, dərdinə dərman tələb eylə,
Gər can dilər isən, yeri, canan tələb eylə!

Ey bülbüli-qüdsi, nə giriftari-qəfəssən?
Sındır qəfəsin, tazə gülüstan tələb eylə!

## NİŞAT

Sənii fərşin ki, zahid, buriyadır
Həqiqət mənzilində bu riyadır.

Nigahından ol ahuçeşmin, ey dil,
Özün hifz eylə kim, eyni-xətadır.

Əcəb yox,kakilindən olmasam şad,
Mənim bəxtim ki var, başdan qəradır

Sınıq ney tək həvadən düşdü könlüm,
Qalıb qəm guşəsində binəvadır.

Nişatın könlünü incitmə, ey şux,
Sənə nifrin edər, əhli-duadır.

Qönçə tək sirrin kişi eldən nihan etmək gərək,
Aşiqi-yekrəng olan bağrını qan etmək gərək.

Xəlqdən qəti-əlaqə eyləyib ənqa kimi,
Bir qənaət guşəsində aşiyan etmək gərək.

Müşkül işdir dərdi hər bidərdə izhar eyləmək,
Dərdi bir dərd əhlinə şərhü bəyan etmək gərək.

Yaxşı gündə bilmək olmaz kim, dəyanət kimdədir,
Yaxşı yoldaşi yaman gün imtəhan etmək gərək.

Ey Nişat, ox tək sözündən aləmə səhm əyləşir,
Beylədir, doğru sözü xatirnişan etmək gərək,

Zülfi-siyahın oldu bu gün ruyinə niqab,
Axşam arayə gəldi, qürub etdi afitab.

Qəddin bərabərində sürahi sücud edər,
Ləli-ləbin yanında əyağə düşər şərab.

Eşqin ilə könlümün xasiyyəti pərvanədir,
Yanaram eşq atəşinə, bilmənəm pərva nədir.

Vəsli-canan istəyən aşiq gərək candan keçə,
Yarə mərhəmdir özündən hər kişi biganədir.

Vaiz,etmə çox mənə təklifi-məscid birlə pənd,
Könlümü azdırma yoldan, doğru yol meyxanədir.

Zahida, ömrün veribsən badə, mey nuş etməyib,
Bilməyibsən mərifət sərmayəsi peymanədir.

## HAŞİMİ ŞİRVANİ

### AĞSU KÖRPÜSÜ HAQQINDA

İki tarix etdi növicazi-təbi-Haşimi,
Əvvəli zinöqtədir, ikinci misradır əmim.
Qıldı Paşa Ağsuya bir körpü, buldu çox səvab,
Ey zəhi yegdanə kim, ziba sirati-müstəqim.

### XƏLİLİN TƏVƏLLÜD TARİXİ

Nitqü göftarə gəlib genə misali-tuti,
Haşimi şairi-pakizəvü möcüzguya,

Dedi mövludi-Xəlilə iki tarixi-cəlil,
Əvvəli zinüqət, ikinci təmamən xoşəda.

Genə bu gülşəni-dünyayə çü gül gəldi Xəlil,
Vələdən ənbətəəllahü nəbatən həsəna.

## ALLAHİ ARİF ŞİRVANİ

Can zarü tənim nizar sənsiz,
Ömrüm başa yetdi, yar, sənsiz.
Qəddim bükülüb kəmanə döndü,
Dil qəmdən olub fikar, sənsiz.
Hicrində olubdu taqətim taq,
Əldən gedib ixtiyar sənsiz.
Yox məndə qərarü səbrü taqət,
Etməkmi olur qərar sənsiz?!

Fəryad ki dövri-namüvafiq
Qoydu məni, ey nigar, sənsiz!
Dil qönçəsi qan olub, açılmaz,
Gər yüz min ola bahar, sənsiz.
Ey gül, gecə-gündüz Arif ağlar
Bülbül kimi zar-zar, sənsiz.
Yüz qoyub qəm ər tərəfdən, qalmışam qəmxarsız,
Mayeyi-ömrü təmamən sərf qıldım yarsız.
Mübtəlayi-möhnəti-icranü zari-firqətəm,
Ruzigarım tirədir ol türreyi-tərrarsız.
Qəm məni pamal qıldı, ey müsəlmanlar, həray!
Olmasın kafər də, ya rəb, mən kimi qəmxarsız!
Qəbrimin daşına yaz, ey əli-dil, bu misrəi: -
Verdi Arif canını min əsrət ilə yarsız.

## ŞİRVANIN XANI MUSTAFA XANA YAZDIĞI QƏSİDƏ

Ey mənə tövbə verən Mustafaxani-Şirvan,
Bax bu dibaçəyə, məzmunun eşit, ərzimi qan!
Bu necə fikr idi, əvvəl məni xoşhal etdin,
Bilmədim noldu səbəb aqibəti oldu yaman?
Bu necə lütfü ətadır, bu necə qəhrü qəzəb,
Sabit et, varsa günahım elə adil divan.
Mən əgər etdiyim iqrarıma inkar olsam,
Hökm qıl boynumu vurdur, sənə canım qurban!
Sən kimi şəxsə nə layiqdi ola vədəxilaf,
həq rizası bu deyil, ismi-şərifindən utan!
Ər kişinin sözü mərdanə gərək, mərd olsun,
Sahibi-rütbə olan şəxsdə olmaz ki yalan!
Yoxdu bu əsrdə bir sən kimi xoşnəqş hərif,
Edəsən etdiyin iqrarına əhdü peyman.
Kimiyadır nəzərin, surəti-əhvalına bax,
Hər gədazadələrə verməgiləi şövkətü şan.
Bir məsəldir ki, gəda oğlu gədazadə olur,
Başına cıqqa qızıldan vura, olmaz sultan.

Sənə ixlası olan dostun edərsən məhrum,
Nəzəri-mərhəmətin düşmənə var bipayan.
Məni çıplaq görüb qeyri-xəyal eyləmə kim,
Mahi-nov qaidəsidir olur üç gün üryan.
Gənci-bəhrimdə mənim dürrü cəvahir çoxdur,
Bu xəridarə gərək talibi-sərrafi-cəhan.
Çəkməyən həbsi-sədəf əhsəni-barani-bahar
Qədrü qiymətdə tapılmaz ola dürri-qəltan.
Alicaha, mənim eybim budu şirvanlıyam,
Yoxdur ərbabi-kəmal içrə vəzirü xaqan.
Sədri-məclisdə mənə laf vuran kəs çoxdur,
Şəxsi-bir kimsənədir sahibi-mərdi-meydan.
Bu səxavət ki sənin var, bu mirzə, bu vəzir,
Kərəmin cuşə gələ Hatəmi eylər dərban.
Bir nəfər şəxs bu dərgahdə var əsl nəcib
Eşik ağası Ağa bəy, özü tək yoxdu cavan.
Hacıya həcc qənim oldu ki, gəldi qapuva,
Həcərüləsvədi sövda eləyir, yoxdur alan.
Vələdi-Ağasəlim Mirzə Əlirzayi-təbib,.
Ələ düşməz belə məlunü ləinü şeytan.
Baxma şeytan sözünə, qövlü onun batildir,
Həzrəti-Adəmi yoldan çıxarıb biiyman.
Bu vilayətdə mənim zərbimi hər kəs ki tutar,
Özü bicdir, anası qəhbə, atası rəhban.
Mənim həqqimdə sənə hər kişi bədguluq edə
Nəslini puç eləsin batini-şahi-mərdan!
Bundan artıq danışam pərdeyi-ismət açılar
Ki, gərək olmaya naməhrəmə bu sirr bəyan.
Dadrəs hakim isən ğövrə yetiş, eylə nəzər,
Heç kimin rəyi ilə dönmədi çərxi-dövran.
Bu fəna, köhnə xərabatiyə bel bağlama çox,
Neçə İskəndəri mənzildə qoyub sərgərdan.
Noldu Kavus ilə Key, Xosrovu Cəmşid ilə
Cəm, həşmətü dəbdəbeyü təntəneyi-Nuşirəvan?!
Hind ilə Rumü Dağıstandan alan bacü xərac
Ciqqeyi-Nadiridən qalmadı asarü nişan.
Fikri-üqba elə, bu şövkətə məğrur olma,
Məsnədi-təxti-Süleymanı qılıbdır viran.
La şərikü əhədü qadiri-yekta özüdür,
Cümlə müşküllər açan, ismi-ğəfurü rəhman.

Sənə bəxşayiş edib zurü zər ilə həşmət,
Mənə bəxşayiş edibdir nəfəsi-tiğzəban.
Saxlasın hifzü pənahında səni rəbbi-cəlil!
Düşmənin zillət ara xak ilə olsun yeksan!
Həqqə mürvətdimi bir parça çörəkdən ötəri
Öldürürsən məni, axırda olarsan peşman.
Ya mənə rüxsət ver, bir də cahangəşti olum,
Zəhrimardır mənə bu şəhrdə bir parçeyi-nan.
Mirzə Cəfər ola Şirvandə çavuşbaşi,
Gəncədə rəqsə gələr qəbrdə ol Şeyx Zaman.
Bu nə namusü nə qeyrətdi, bu nə himmətdir,
Öz itin ac qoyuban, qeyrə edirsən ehsan?!
Arifa, bəndədən əl çək, sığın-allahə pənah,
Mustafa vasitəm, allahdən allam fərman. •

## ŞEYX ZAHİR ŞİRVANİ

Cahanda həq bilir kim, bir kəs ilə qalımız yoxdur,
Vəlakin neyləyim kim, bəxtimiz, iqbalımız yoxdur.

Desəm yüz doğru söz, qılmaz xəlayiq etibar əsla,
Sözüm ötməz, nədir vəchi, məgər saqqalımız yoxdur?

Nə miqdar olsa cürmün Zahir, allah lütfü əfzundur,
Ümidin kəsmə həqdən, gərçi bir əmalımız yoxdur.

## ŞAKİR ŞİRVANİ

Nə xoş çəməndi ki, mən güllərinə qurbanəm,
Nəvayi-ləhceyi-bülbüllərinə qurbanəm!

Çıxanda tərfi-güləhdən yüz ev yıxar hər dəm,
O kakili-siyəhin tellərinə qurbanəm!

Nəsimi-badi-səbadən bu qədd kim, üzülə
Nə incə beldi ki, mən bellərinə qurbanəm!

Təmami qaragözü alyanağü simbədən,
Nə yaxşı eldi ki, mən ellərinə qurbanəm!

Əgərçi Şakirə cövr eylədi, rəqibə vəfa,
Qoy eyləsin ki, onun əllərinə qurbanəm!

## VAİZ ƏFƏNDİ ŞİRVANİ

Demin kim, xəlq ara birəğbətiz, iqbalımız yoxdur
Zəmanə mövsümi-dəsmaldir, dəsmalımız yoxdur.
Mətai-zatımızdır şükr lillah, eybdən ari,
Rəvacın verməyə tərif edən dəllalımız yoxdur.
Humayız üstüxan ilə qənaətpişə, kərkəs tək
Şikari-cifeyi-dünya üçün çəngalımız yoxdur.
Ağız kəskinlikiyçün dəxli çoxdur yalü güppalın,
Şikəstə, bəstəfəqriz, yalımız, güppalımız yoxdur
Səbügruhü fitadəməşrkbiz, fariğ təkəllüfdən,
Zəmanə əhlinə lazım olan sanbalımız yoxdur.
Dilərsən söz keçirmək, bihimal ver rişü dəstarə,
Cahan əhlinə keçməz söz, neçün, saqqalımız yoxdur.
Zəmanə halidir, Vaiz, həya saxla həyasızdan,
Həyasızla həyasızlıq edəcək halımız yoxdur.

Bimehrü bivəfanın heç kim sözünü qanmaz,
Yəğmadən əl götürməz, bidaddən usanmaz.
Cahi-cahan gələndə bir tari-muy saxlar,
Üz döndərib gedəndə zəncir ilə dayanmaz.
Töhmət deyən özüyçün, nə söylər özgəsiyçün?

Utanmayan özündən, heç kimsədən utanmaz.
Münim yalan deyəndə, təsdiq edər xəlayiq,
Doğru deyərsə müflis, heç kim ona inanmaz.
Ey dilbəri-sitəmkər, məğruri-hüsn-olma,
Heç kimsənin çirağı sübh açılınca yanmaz.
Zərfin tünükdü, zahid, bir cuş ilə daşarsan,
Dəryadilin mizacı seylab ilən bulanmaz.
Vaiz, sənin kəlamın hər biri neştər olsa,
Hər kəs edərsə qəflət, ta həşrədək oyanmaz.

## SALEH ŞİRVANİ

Etməz bihari-eşqdə cüz aşina şina.
Qılmaz qəbul, ey könül. ol kibriya riya.
Girdabi-dərdə düşdüsə gər gəştiyi-vücud,
Sahilpəzir edəndir onu naxuda, xuda!
Gör Saleha, qərini-təcəlli olurmu dil,
Ta ondan olmaya əsəri-masiva siva.

Bağiban, sərvin gülüstan içrə rənalənməsin,
Açmasın qönçə niqabın, lalə həmralənməsin.
Göstər, ey gül, arizin kim, lalə olsun dağidar,
Aç müənbər kakilin, sünbül mütərralənməsin.
Aç ləbi-möcüzbəyanın, qıl təkəllüm, ey sənəm!
Mürdələr qıl zində kim, İsa məsihalənməsin,
Bülbülü şərməndə eylə, göstərib rüxsarını,
Qıl təkəllüm, ey şəkərləb, tuti guyalənməsin,
Göstər ol müşkin hilalın, ey məhi-bimehr kim,
Mahi-nov şərməndə olsun, daxi peydalənməsin.

ŞÜĞLİ ŞİRVANİ

Olmadım mən bir zaman heç şad əlindən, ey könül!
Bulmadım dil şəhrini abad əlindən ey könül!

Ey könl, səndən kimə bilməm şikayət eyləyim,
Dad əlindən, ey könül, fəryad əlindən, ey köül!

SABİT ŞİRVANİ

İsmləri Sadiq bəydir. Mehdi bəyin
xahərzadələridir.
Sair qəzəl və qəsidəsi nəzəri-həqirə yetmədi.
Bu neçə nəzmə iktifa olundu:

Eşitmişəm yar yanında müddəi
Deyib: «Sabit bu samanə gəlməsin!»

Gülçün deyər, öz tikdiyi bağına
Mane olub bağibanə gəlməsin!

Bu necə rəvadır deyə Əhrimən
Asəf mülki-Süleymanə gəlməsin?!

Təvafi-Kəbəyə olarmı layiq,
Kafər deyə müsəlmanə gəlməsin?!
MOLLA PƏNAH VAQİF

Ah, bir sərxoş nigarın dağı öldürdü məni,

Günbəgündən hüsnünün.rövnağı öldürdü məni,
Ağ biləklərdə qızıl qolbağı öldürdü məni,
Eylədi şəhla gözün müştağı, öldürdü məni,
Qamudan əla ki qaşın tağı öldürdü məni.

Nə əcəb təsvir olur ağ əllərə əlvan Həna,
Məxmuri gözlər piyalə, gərdəni misli mina,
Al sərəndaz ilə qəsabənin üstündən cuna,
Qol gümüş bazbəndli, beldə kəmər üstü mina,
Məclis içrə bu nişanda saqi öldürdü məni.

Al yanaqları sanasan ki, qızıl gül xirməni,
Tər zənəxdanına baxdıqca cünun eylər məni,
Məst çeşmində əcayib rəng tutmuş sürməni,
Qurşuyub ol ağü nazik əllər ilə tirməni,
İki yandan ucların sallağı öldürdü məni.

Sallanıb yüz naz ilən hər dəm çıxanda xanədəi,
Hər tərəf baxsa qırır; həm aşina, biganədən,
Əqlü huş ikrah olub, getdi məki-divanədən,
Qarə gözlər süzülüb, sərməst olu peymanədən,
Ahu tək hərdəm dönüb baxmağı öldürdü məni.

Vaqifəm, qıldım bu şuxün hüsnünü fikrü xəyal,
Günbəgün incəlübən oldu tənim muya misal,
Axırı verdi məni bərbadə bu qaşı hilal,
Qəbrimin daşına yazsın bu sözü əhli-kəmal: —
Dilbərin məndən uzaq olmağı öldürdü məni..

## ABBASQULU AĞA QÜDSİ

Sən onda səfa eylə dilculər arasında,
Mən qalmışam avarə gürculər arasında.

Dərdü qəmi-hicrandan qürbətdə pərişanəm,

Döndü cigərim qanə qeyqulər arasında.
Tərsabeçələrbihəd, mən necə dutum aram,
Can qəsdin edən zalım, cadulər arasında.

Hər canibə əzm etsəm əzbəs ki, gözəl çoxdur,
Tutisifətəm heyran güzgulər arasında.

Bir yanə əgər baxsam, qəm çəkmək olur bica,
Bunlar kimi möhtələt xoşxulər arasında.

Yüz işvəvü mehr ilə aşiqlərə meyl etmək,
Bu şəhrdə adətdir məhrulər arasında.

Əbr içrə günəş manənd pərtöv salır afaqə
Rüxsarəsi hər şuxün keysulər arasında [...]

Cuşi-xəti-müşkindən bənzər ləbi-canbəxşi
Bir mədəni-yaqutə hindulər arasında.

Tərsa gözü kəşf eylər hər ləhzə kəramətlər.
Mehrabdə zahid tək əbrulər arasında.

Bunları görüb, Qüdsi, hər kimsə ki, aqildir
Etməz özünü rüsva bədgulər arasında.

Bivəfa yarə könül versə vəfadar əbəs,
Əhdü peymanı yoxa verdi kəmiqrar, əbəs.

Dərdi-dildən səni çün eyləmək olmaz agah,
Qıldığım nalə qələt, etdigim izhar əbəs.

Gül kimi beş gün imiş söhbəti-əbnayi-zaman,
Eylədim ömrümü zaye, özümü xar əbəs.

Çeşmi-cadunigəhin məsti-meyi-xab ikən
Ah kim, eylədim ol fitnəni bidar, əbəs.

Bulmasa feyzi-nəzər kəsbi-kəmal etməz hüsn,
Yar aşiqdən əgər gizləsə rüxsar, əbəs,

Aşiqi-paknəzər vəslini hicranda sanır,
Eyləməz arizuyi-dövləti-didar, əbəs.

Qönçəvü laləni gördüm, qəmə batdım, Qüdsi,
Eylədim meyli-təmaşagəhi-gülzar, əbəs.
QASIM BƏY ZAKİR

Sübhdəm badi-səba türreyi-cananə dəyər.
Götürüb nəkhətin, ondan sora hər yanə dəyər.
Od salır xirməni-məhsuli-dilə bərqasa,
Bu təni-zardə peykanı ki peykanə dəyər.
Atəşə düşmüş ilan tək oluram piçidə--
Ki, neçün zülfi-siyəh arizi-cananə dəyər.
Qərəzin can isə bir tünd nigahın bəsdir,
Heyfdir, atma oxun, hər biri min canə dəyər.
Zakira, səbr elə kim, vəslə dəyən afətdən
Ay ötər, il dolanar, vəqt olu hicranə dəyər.
Gərçi tutub aləmi şurişi-qovğayi-eşq,
Yoxdu cahanda vəli mən təki rüsvayi-eşq.
Canü dilü əqlü huş cümlə müsəlləm ona,
İndi nədir bilməzəm daxi təmənnayi-eşq?!
Xuni-dili dışraya mərdümi-çeşmim tökər
Kim, gərək ari ola mənzilü məvayi-eşq.
Zahidi-sahilnişin, bəhri-bəladən saqın,
Kamə çəkər Yunisi mahiyi-dəryayi-eşq.
Sal təni-napakinə xirqeyi-sədparəni,
Hər qədə layiq deyil xələti-zibayi-eşq.
Qeys ilə həmdərs idim, qaldı o «Vəlleyl»də,
Naqis imiş, olmadı vaqifi-mənayi-eşq.

Könül mürrü səri-zülfündə, ey gül, aşiyan tutmuş,
Əcəb naəmn mənzildə məkan ol natəvan tutmuş.
Dolanır dövri-rüxsarında gərçi müflisi-eşqin,
Nə sud ol gəncdən kim, çevrəsin əfi ilan tutmuş.
Edərlər əhli-dərdi qanda görsə rəhm mərdümlər,
Gözün mərdümləri tək kimdir ox çəkmiş, kəman

tutmuş?

Olub huşyar bəzmi-badədən ol gün ayağ çəkdim--
Ki, gördüm ləli-nabınla qılır dəva o qantutmuş.
Dəhən sirrin eşitdim xürdədandır, qönçədən sordum,
Dedilər:--Bilməzik, bu sirri həq bizdən nihan
tutmuş.

Nə qəflətdir bu səndə, ey sitəmkər, cövrü zülmündən
Sərasər yer üzün sövtü sədayi-əlaman tutmuş.
Qəmü möhnət yükün yoxdur cahanda çəkməyən, amma
Şikəstə Zakirin çərxi-fələk barın giran tutmuş,

Görənlər nərgisi-məstin, nigarım, öylə məst olmuş,
Çəkib səf dövri-çeşmində mücən tək paybəst olmuş.
O.gündən kim, qaşın taqi olub taətgəhi-mərdüm,
Pozulmuş taqi-məscid, rövnəqi-minbər şikəst olmuş.
Nə xoş ülfət tutub zülfi-siyəh rüxsari-al ilə
Təəccüb eylərəm, əfi gedib atəşpərəst olmuş.
Səba şərh eyləmiş guya bu gün qəddürüxi vəsfin--
Ki, gül pəcmürdələnmiş, qaməti-şümşad pəst
olmuş.
Saqınma kim, çıxa sövdayi-eşqin ta əbəd sərdən,
Dilü can valehü heyran sana ruzi-ələst olmuş.
Nisari-məqdəminçün can kimi nəqdi-rəvacım var,
İnanma gər desə əğyar Zakir təngdəst olmuş.

Şamlər tişeyi-Fərhad salır dağə səda,
Bəstəri-eyşdə Şirini şəkərxab anarır.
Mərdümi-didələrim yadi-səri-zülfü ilə
O.qədər əşk tökər, aləmi seylab aparır.
Rəhi-meyxanə tut, ey Zakiri-dərdaludə,
Qəmi sağər dağıdır, dərdi meyi-nab aparır.

Müştaqi-ləbin sağəri-səhbayə baxarmı?
Bir göz ki səni görməyə, dünyayə baxarmı?

Aludeyi-qəddü rüxü çeşmin olan aşiq
Sərvü səmənə, nərgisi-şəhlayə baxarmı?
Yüz mövsəmi-gülzar ola, dilgiri cəmalın
Suyi-çəmənə, canibi-səhrayə baxarmı
Bir kimsəyə xurşidi-cəmalın ola mənzur
Mehri-fələkə mehr qılıb, ayə baxarmı

Fərdlər

Rəqibi görməyə mümkün olaydı yarım ilə,
Gedərdim ol səri-kudən öz ixtiyarım ilə

Mən dedim ahü fəğan eylər o mahə təsir,
Ah kim, ah pərivəşlərə kar etməz imiş,
Yadi-rüxsarı ilə seyri-gülüstan etdim,
Seyri-gül dəfi-qəmi-arizi-yar etməz imiş!

Munca kim vardır ol qəmzeyi-cadudə bəla,
Yoxdu yüzdən biri bu çərxi-cəfacudə bəla.
Ol edər kimini dilşad, kimini məhzup,
Hər nə ətvar rəviş var bu bədxudə bəla.
Zülfi-pürçinin ucundan bilirəm çin-çindir
Çin diyarında xəta, kişvəri-hindudə bəla.
Zəhrəsi çak olur hər görənin əfivəş,
Guyiya qat-qat olub həlqeyi-keysudə bəla.
Hicrdir afəti-can, vəsl isə pür bimü xətər,
Zakira, fikrini gör, o da bəla, bu da bəla.

Xəlqə şərh etmək! Qəmi-eşqin nə hacətdir mana
Laləvəş sinəmdə dağların şəhadətdir mana
Xar olur sənsiz güli həmrayə baxsam çeşmimə
Sərv qəddin görməsəm ol gün qiyamətdir mana
Məqsədim oldur səgi kuyinlə həmavaz olum
Bu təmənna versə əl eyni-səadətdir mana

Giryeyi-zarım vüsalınçün dögül şamü səhər
Biqərəz sövdayi-eşqindən bir adətdir mana.
Əhd qıldı padşahım qətlimə fərda mənim,
Səxt dilşadəm bu gün, hərçənd zəhmətdir mana.
Zakirəm, ol vəchdən zülfü xətin müştaqiyəm--
Kim, siyəhbəxtü pərişanlıqda nisbətdir mana.

qiqə

Neçələr silsileyi-təbimə təhrik verir,
Rişteyi-nəzmə çəkəm yəni düri-qəltani.
Verməsəm vüsət əgər nəzmə olur namərğub,
Eyləsəm cümləsini şərh, düşər tulani.
Çarə oldur ki, genə hər biridən bir şəmmə
Söyləyib ta ki deyəm məzləmeyi-mollani.
Molla nə molla əsiri-şikəmi-əndərpiç,
Qazi nə qazi ki siyr olmaz içə Ümmani.
Hərc-mərc eylədilər məzhəbi-isnaəşəri,
Etdilər zirü zəbər barigəhi-iymani.
Hər «əlif-bəy» oxuyan adını ruhanı qoyub,
Bilməz öz əbcədini, ruhə çəkər suhani.
Alimü fazilü ustadü müridü mürşüd
Nə qədər ki görəsən dəhrdə sərgərdani,
Həmə qövğaləri bəhri-dirəmü əqmişədir,
Həmə təqvaləri şali-əməli-girmani.
Cümlə bədkarü dilazarü mühilü kəzzab,
Cümlə bidinü süxənçinü şərarət kani.
Əllərində hamının səbheyi-səddanələri,
Dillərində hamının şamü səhər yalani.
Vermənəm mən oların taəti-bibəhrəsinə,
Tanrı şahiddir özü məsiyəti-düzdani.
Ah, bu müftəxorun dad əlindən, səd dad--
Ki, salıbdır necə gör məmləkətə qovğani.
Genə filcümlə üsul ilə Üsuli danışır,
Ol ki Şeyxi səfidir dibdən urur baltani.

Etməyib şərmü həya göz görə Əbdüllahə,
Eylər isbat sərasər sifəti-sübhani.
Bişü kəm xaliqü məxluqdə bir fərq gərək,
Eyləsən nik-nəzər, bunda təfavüt hani?
«Məzhəbi-isnaəşər»—on ikn
Bir quru ismdən özgə dəxi həqqə nə qalır,
Lənət olsun sana, ey münkiri-həq ruhani!
Qasimi-rizq deməks gər bu isə, şamü səhər
Şiri-yəzdan götürüb dəstinə paylar nani.
Bu dəni rütbə nə layiq o şəhi-kovneynə?
Haşəlillah, götürə mənsəbi-fərraşani?!
Yoxsa qəsdin budu kim, ruzirəsan onlardır?
Sifəti-sanei müşküldü tapa insani.
Bəs deyilmi olalar vasiteyi-külli-vücud,
Bəs deyilmi olalar külli-cahanə bani?!
Bəs deyilmi olalar şafei-ruzi-ərəsat,
Bəs deyilmi olalar lütfü mürüvvət kani?!
Nə rəvadır ki, hər işdə eləyək həqqə şərik
Biz imami, necə ki, ermənilər İsani?!
İki tari genə mümkündü süluk eyləyələr,
Gərək on dörd yerə bunlar bölələr dünyani.
Doğrudur, raziqi-mühyiyyi-mümitdən qeyri
Hər sifət ki desələr var sifəti-imkani.
Bir deyən yoxdu ki, ey asiyi-dərgahi-ilah,
Bir xəyal eylə ki, kimdir dedigin böhtani?!
Gedəcək duzəxə bişübhə, o mövla həqqi,
Xaliqi-mövtü həyat kim bilə ol mövlani!
Dəxi bir yerdə deyirlər ki. Rəsulə Cibril
Batinindən gətirir zahirinə Qurani.
Belə gər olsa, cəmii-şüəra mürsəldir--
Ki, yazub hər biri bir cild, iki cild inşani,
Onların da genə var neçə ülul-əzmləri,
Ənvəri, Sədiyü Cami, dəxi həm Xaqani.
Mən də peyğəmbəri-namürsəliyəm Kolbasarın,
Ümmətim Tanyaqü Külqışlaqü Xızrıstani.
İstər idim dəxi də nəzmə verim tul, vəli
Dil dedi: Ömr keçib, söyləmə bu həzyani.
Dəmi-rəhlətdi, könül. bari-iqamət açma,
Mizəban xar dutar diyr keçən mehmani.
Getdi həmdərdlərim, bisərü saman qaldım,

Bu ribati-kühənin yoxdu sərü samani.

Dili-üşşaqə gərçi qeydi-zülfündən fərar olmaz,
Götürmə bəndi-zəncirin, əsirə etibar olmaz.
Rüxün dövründə, ey gül, naleyi-zarımdan incinmə,
Bu ayini-cahandır, hiç bülbülsüz bahar olmaz.
Qubari-xatirim əfzun olur göz yaşı tökdükcə,
Ju oynağı olan mənzildə bəs derlər qubar olmaz?!

Kəmali-hüsn ki sane o sərvnazə verə,
Nə hacət anə dəxi bir də zibi-ğazə verə.
Hədisi-ləli-ləbin görsə hər kitabdə dil,
Gərəkdi rişteyi-candan ona şirazə verə.
Təkəllümün, dedilər, yar nəqdi-canə verir, |
İnanmazam, bu giranmayə dürrü azə verə?!
Nə dildə tabü təvan var ki, şərhi-raz qıla,
Nə əl qələm dutar, əhvalı yarə yazə verə.
Sirişki-çeşm ilə kilki-mücə bəyaz rüxə
Bu ikki fərdi yazub ol dəninəvazə verə.
Rəqib--məhrəmi-bəzmi-vüsal, mən məhrum,
Rəvamıdırmı bu qüssə məni güdazə verə?!
Bu Zakiri edə hicrin fəzayi-qəmdə xərab,
Həyat ləli-ləbin qeyrə tazə-tazə verə.

Urub həmrənglikdən bərgi-gül laf ol dodaq ilə,
Səba topraqə salmış, hər yetən tapdar ayaq ilə.
Qalardım gizlənib billəh, müsəlsəl zülf arasında,
Əgər bir hiylə ilə gedə bilsəydim dəraq ilə.
Nə hacətdir şəbi-hicran ara hali-dilim sormaq,
Bilirsən rovşən olmaz aşiqin bəzmi çiraq ilə.

Cigər qanından özgə əkl bilməz dildə peykanın,
Dəriğa kim, səri-karım düşüb bədxu qonaq ilə.
Yetişdi başə ömrüm, olmadı məqsudi-dil hasil,
Bu gün fərda deməkdən canə yetdim iştiyaq ilə.
Deyil şəbnəm, götürmüş başə nəqdi-hasilin hər yan
Nisari-məqdəminçün lalələr, güllər təbaq ilə.
Nə müşküldür ki, asan olmaya tədric ilə Zakir,
Müdara etmək olsaydı əgər müddət fəraq ilə.

Könlüm quşu seyd oldu gözü qaş arasında,
Qanlar düşəcəkdir iki yoldaş arasında.
Sədparə dilin hər itinə parəsi düşdü,
Təqsim olu yəğma necə ovbaş arasında.
Bak eyləməzəm səngi-sitəmdən eşigində,
İncərmi vətəndən kişi xüd daş arasında?!
Sərçeşmeyi-çeşmimdə ləbin əksidi bilməm,
Ya xuni-cigərdirmi gəlib yaş arasında?!
Yüz aydı qaşın tərhinə qoymuşlar əl, amma
Var gülli kəşakəş hələ nəqqaş arasında

## DİDƏ

Dideyi-dəhr, arifül-həqayiq və kaşivüd-dəqayiq, şeyxüş-şüəra və qütbül-ürəfa Mövlana Mirzə Nəsrulla bəy xələfüs-sidqi-Qurban bəy Şirvani. Təvəllüdi-şərkfləri fi sənəti 1212, Fit dağında vaqe olub və ol səfəhatdə nəşvü nümayə yetmişdir O cənabın dərəceyi-kəmalına binaən dövləti-Rusiyyənin Şirvanatə istilasında ümuri-səltənətdə sahibmənsəb və sahibnişan kimsənələrdən olmuşdur. Belə ki, o cənab hər bir lisap ilə təkəllüm etməkdə qadirdir. Və zəbani-ərəb və fars və zəmmi [erməni] və rusidə qayətdə mahir, zəmani-səbüv vətində «Sükrüş-şobab əşəddü min sükrüş-şərab demişlər, əşari-aşiqanələr deməgilə əlayiqi-dünyavidəq. bəsani-dərvişi-xanəbərduş və nəşeeyi-cami-

şəbabdan; guşeyi-işrətdə bixəbər və mədhuş olubdur. Əlan sinni-şərifi həftədə yetmişdir. Guşeyi-üzlətdə müsvəddati-latayil və münşiyyati bihasildən xəmul və xəmuş olmuşdur. Nəti-həzrəti-Seyyidil-mürsəlin və mədhi-Əmiril-mömininə məşğul və əşari-məvakzasarləri hüzuri-xasü amdə məqbul. «Kitabi-nəsihətül-ətfal» ki o cənabın təspifatlərindəndir, həqiqəti-hal kitabın səhayif və ovraqında hikmət. üzüylə isbati-vacibəl-vücudə müxtəsər və mütəvvəl dəlillər sürmüş və bürhan və məanidən mühəlili-üqdeyi-təşkik olub, pəsəndidə və mərğub olan sübutlar yürütmüşdür. Ətfali-novrəsidələrə, nəinki ətfali-novrəsidə,. bəlkə pirani-kəmtəcrübeyi-ət-falmisallara loğmansifət fəsahət birlə zəbani-nəsihət açıb, [...]və nəsayihi-sudmənddən onların hədayiqi-əxlaqlarında rəngin olan güllər saçıbdır.

«Kitabi-məqtəl» kim cənab Seyyidüş-şühəda əley-hissəlamın məsaibində tərtib qılmışdır «Məsaib-nameyi-məqtəl»i-Cövhəri və «Hədiqeyi-Molla Məhəmməd Bağdadi»dən kəm deyildir. hər bir lisan ilə əşar deməyə o cənabın təbi qadirdir, Qüvveyi-təbi əşari-ab-darından zahir və «Divani-qəsaid» və «Qəzəliyyat»ı məşhur və məhafilü məcalisi-ürəfa-kəlami-dilpəzirindən pürnurdur. Beyt:

Əş ari-lətifi zinəti-bağü bahar,
Şeyxüş-şüəra Dideyi-şiringöftar
.

Bu bir neçə əşari-türki o cənabın türki kəlamlarındandır ki, səbt olundu:

QƏSİDƏ

Cahani-faniyənin axiri fənayətdir,
Bu bir səhih süxən, müxtəsər hekayətdir.

Müsəlsəlanə gəlir mövci-bəhr tək aləm,
Bu movci-ruz-şəbin sahili qiyamətdir.
Vəleyk əhli-cahan yadə salmayır ölümü,
Mütii-nəfsdi məcmui bibəsarətdir.
Riyayi-taət edər, əksəri-təqəllübdar,
Muradü mətləbi tədlisdir, bətalətdir.
Kimisi tənə qılır qazılıq xəta işdir,
Vəleyk öz qərəzi məsnədi-qəzavətdir.
Kimisi vəz verir xəlqə: uyma dünyayə!
Vəli, özü gecə-gündüz xəyali dövlətdir.
Kimisi tülkü kimi caməsin edir təğyir,
Çəkər özün dəməgə, yəni bu riyazətdir.
Fəsadi-aləmə bais fəsadi-alimdir,
Vücudi-narə tütün çıxmağı dəlalətdir.
Kimi xətibdi mənbərlər üzrə bülbülvar,
Özün büruzə verir məşəri-fəsahətdir.
Kimi müəzzin olub dadi-əssəlat eylər,
Özünə dən çağırar, xadii-cəmaətdir.
Kimisi hülqini yırtar ki, var təcvidim,
Qaşın yuxarı çəkər qarei-qiraətdir.
Kimisi qət qılıb mürvət ilə insafın,
Adın təbib qoyub, qətli binəhayətdir.
Ölüncə şəxsi soyar, xovf eyləməz zalım,
Mərizin ölməyi guya ona zərafətdir.
Kimi bazara çıxıb, söz oxur ki, dərvişəm,
Təmami pul tələsi, qeyri söz nə hacətdir.
Kimisi pul götürüb, Kəbəyə iradə edər,
Muradı hörmətidir, zahiri ziyarətdir.
Kimisi dövləti çox, çox xəsis, virdi. budur.
Qibabi-izzü əla guşeyi-qənaətdir.
Kimisi himməti çox, çox fəqir, zikri budur:
Kərəm əli kişiyə rütbeyi-kəramətdir.
Bizim zəmanəmizin milləti olubdur qəlb,
Səxa-əxəssü kərəm-mərkdən ibarətdir.
Hənuz ol yerə yetmiş mədarici-xissət,
Səxa edən kişinin tənəsi səfahətdir.
Cəhani-faniyə bir bəhrdir, təlatümi-qəm,
Ğəriqi-bəhrə nişat eyləmək həmaqətdir.
Əgər xəyal edəsən mərk ilə qiyamət işin--
Ki, hər nəfəs bizə yüz mərk, min qiyamətdir.

Bu bəndəlik ki. bizim firqədən zühurə gəlir,
Məhal dərgəhi-məbudə gər ləyaqətdir.
Bu gunə ləğv əməllər ki bizlər eyləyirik,
Cəzası ruzi-cəza təndir, siyasətdir.
Nəmazımız doludur nisyənin hesabı ilə,
Rükuü səcdəmizin fikri binəhayətdir.
Oruc tutanda, tutaq ki təamlər yemirik,
Vəli təamə əvəz göftüguyi-qeybətdir.
Zəkat versək əgər, fəxri-hatəmi edərik,
Fəqir malını vermək bizə səxavətdir.
İanəti ki, edək bir fəqirə nüdrətdən,
Həman ianətimiz tez dönüb ihanətdir.
Baxın kəlami-məcidə, görün vəidatı,
Bəyani-qəhrü qəzəb sureyi-bəraətdir.
Ümid qaldı kərimin dəri-təfəzzülünə,
Vücudi-paki-nəbi gövhəri-şəfaətdir.
Bu yerdə xətm gərək nəzmü mövizə, zira,
Məqami-nami-nəbi xatəmi-risalətdir.

Qəzəl

Çıxdı əbri-bərgdən kövkəb kimi ruxsari-gül,
Ləmə-ləmə nur saçdı aləmə ənvari-gül.
Məşriqi-şaxi-zəbərcəddən çıxıb xurşid tək,
Bərq qıldı cümleyi-əzhardən izhari-gül.
Şərbəti-safi-bənövşə lalənin camındadır,
Xəstəyə səhhət verir, hər kim ola bimari-gül.
Bülbülə dərdi-dilin eşqində tibyan etməgə,
Qönçədən məkşuf olur şax üstünə tumari-gül.
Misr mülkü məhv olub, nəqli-Züleyxa oldu həkk,
Hər tərəf min Yusifə zinət verir bazari-gül.

Çıxdı rəhmi-şaxdən tifli-şərəfəfzayi-gül,
Gəldi Məryəmdən zühurə həzrəti-İsayi-gül.
Bir cəlalü hüsn ilə çıxdı fəzayi-aləmə,
Dövləti-dünyayə dəydi tələti-zibayi-gül.
Nurü tələt gövhərində fitrəti-əsliyyədir,
Sübhdəm xurşidə bənzər, gecələrdir ay gül.
Aləmi-gülzardə bir Xosrovi-sahibcəlal,
Ya çıxıb təxti-zümürrüd üstünə Darayi-gül.
Bülbüli-Məcnuni qıldı baxəbər badi-səba,
Yatma, dur, gülzarə gəlmiş seyr üçün Leylayi-gül.
Didə, nərgis tək xəyalın xaməsin bidar qıl,
Hər zaman təhrir qıl vəsfi-ruxi-inşayi-gül

## MİRZƏ AĞA TƏBİB

Buğratüd-dəhr, Calinusül-əsr, təbibi-mahir, filisu
şahir Mirzə ağa ibn-Ağa İbrahim-ibn-hacı
Ağaba-bayi-Şəmaxiyyül-əsldir. Təvəllüdi-şərifləri
1220-ci sənədə Fit dağında vaqe olmuşdur. Hali-
səbavətdə tə-limi-ülumi-qərbiyyəyə mail ikən bəməzmuni:
müqtəzasınca təbiəti-şərifi fünuni-ülumi-tibbi ixtiyar
edib və ol elmin kəsbində riyazati-şaqq çəkib, tainki
təhsildən ötrü darüssəltəneyi-İsfəhana gedib, cənab
mövlana, qütbi-məhvəri-təbabət, Mirzə Ağaməhəmməd
Əhmədabadidən müddəti-altı il təhsili-fünuni-riyazi və
tibbi edib[dir]. Elmi-təbabətdə şöhreyi-afaq [olmuşdur].
Tarixi-hicrətin 1237-ci sənəsində şəhri-Şamaxiyə müraciət
qılıb. Yümni-ənfask-məsihatəşindən güruh-güruh alamü
əsqamə giriftar olan əşxaslər şəfa tapıbdır.

Əlhəqq bu zəmanədə bir təbibdir, bimislü qərin.
Bu bir neçə türki əşar təbərrükən o cənabdan səbt
olundu:
hicranuvun ki xəstə könül mübtəlasıdıo

Ol xəstənin şərabivüsalın dəvasıdır.

Hər bivücudü bülhəvəsə atma bisəbəb,
Qəmzən oxun ki aləm onun kəmbəhasıdır,

Mənsux olub fəsaneyi-Məcnun zəmanədə,
Şimdi mənim cünunluğumun macərasıdır.

## SƏFİQULU BƏY

Tutdu qəm ləşkəri yüz könlümə hamun-hamun,
Qara baydaqlı ələmlər, ucu gülgun-gülgun.

Cigərimdən genə od parladı duzəx-duzəx,
Ürəyimdən genə qan qaynadı Ceyhun-Ceyhun:

Çağırırdım uca avaz ilə:--Leyla, Leyla!
Dağ səs verdi tavabımda ki, Məcnun, Məcnun!

Yığmışam hasili-qəm yanıma xirmən-xirmən,
Yetə bilməz mənim imkanıma Qarun, Qarun.

Bu nə viranə könüldür, Səfi, ey vay, ey vay!
Sərvlər var belə bu bağdə mövzun-mövzun.

## MOLLA SADİQ BADİKUBƏİ

Ey yari-əzizü mehribanım,
Arami-dilü qərari-canım.
Şirvanda səniylə, ey nigarım,
Bir növ keçirdi ruzigarım.
Ayırdı fələk məni vətəndən,
Bir sən kimi yari-gülbədəndən.
Guya sənə oldu Misr Şirvan.
Baku mənə oldu beytül-əhzan.
Namən mənə gəldi pirəhən tək,

Oldu Bakı guyiya vətən tək.
Bir növ ilə şad oldum, ey can,
Bakı nəzərimdə oldu Şirvan.

## HACI NƏCƏF BƏY

Fəsahət gülüstanının bülbüli-şirinzəbanı, bəlağət şəkkəristanının tutiyi-şəkkərfəşanı, xeyrül-hac, hacı Nəcəf bəy Şirvani. Təvəllüdi-şərifi hicrətin 1230-cu sənəsində şəhri-Şamaxıda vaqe olub, o diyarın əazim və əkabirzadələrindəndir. Qəsidə və qəzəldə təxəllüs ixtiyar etməmişdir.

Həqiqətül-hal-bəndeyi-həqir bir müddət o cənabın xidməti-müsahibətində olmuşam. Gümanım budur ki, bir belə rəfiqi-sahibhal və müsahibi-xoşəhval səfheyi-afaqda tapılmasın. Elmi-musiqidə Fəriyabiyi-sanidir ki, əlhəq sərrişteyi-tammı və nəzm və nəsrdə çox şirin olan kəlamı yvardır].

Fününi-şerdə qüvveyi-təbindən şerfəhmliyi ziyadədir, çox dəqiqfəhmdir və əhli-zövq. Və bu məna o büzürgüvarın sədaqətindəndir ki, əyyami-şəbabından intəhayi-şeybə kimi dostluqların Sağəriyi-nüktəpərvər ilə dərəceyi-kəmalda buldum, günbəgün məhəbbətlərin ziyadə. Xülasə, o büzürgüvar ticarət əzmi ilə səfheyi-İran və ərseyi-Rum və Ərəbin əksər şəhərlərin səyahət etmişdir. Bu qəsidəni tarixi-hicrətin 1279-cu sənəsində Məkkeyi-müəzzəməyə getdikdə İstambulda Yaranal Ömər paşaya yazmışdır ki, təbərrükən səbt olundu:

## QƏSİDEYİ-TÜRKİDİR, ÖMƏR PAŞANIN ŞƏNİNDƏ

Ey olan tabei-əhkami-qəza, əmri-qədər,
Belədir şiveyi-ərbabi-vəfa, əhli-hünər.
Hər diyari ki degil arif üçün müstəhsən,
Arifi-kamil o yerdən edər əlbəttə səfər.

Sənə şayistə budur kim, biləsən izzətüvi,
Tutasan mürği-şikarı kimi əladə məqər.
Cümlə küffarə müsəllət olasan, şənindir,
Ola dəstində Əli dəsti kimi tiği-düsər.
Layiqindir olasan təxti-xilafətdə müqim,
Necə kim, məsnədi-peyğəmbərə əyləşdi Ömər.
Sərvəra, gər eləsəm hali-dili-zarımı şərh,
Yetişər ayineyi-qəlbüvə əlbəttə kədər.
Keçən övqat hekayatın əgər cümlə yazam,
Dərdi-sərdir sənə, tulani olar həm dəftər.
Şərhi-tətvili-ibarətdən edib istibad,
Müxtəsər ləfzə mütəvvəl sözü etdim müzmər.
Etdi məhcur o zaman kim, məni gərduni-nugun,
Etdi məhzun o zaman kim, məni çərxi-əxzər,
İnqilab əhlinə sərriştə verib dövri-zaman,
Eylədi özgə tədarük fələki-şöbədəgər.
Məcməi-xüldə girib məkr ilə bir parə ləin,
Elə kim. batini şeytan idi, zahirdə bəşər.
Hər zaman gülşəni-cananə ki vardım, gördüm
Gülsitani-güli-rənanı tutubdur sərxər.
Bildim iqbalıma bir məks qurub nərdi-qəza,
Tasi-bəxtim mənə göstərdi təriqi-şeşdər.
Hər gülüstanə ki vardım açıla qönçeyi-dil, .
Qəlbim ol payədə təng oldu ki. bəddən badtər,
Hər zaman oldu ki, mey sağərinə rəğbəti-nəfs
Dərdi-sər verdi, qəm artırdı mənə ol sağər.

Neçə gün mati-təcərrüddə qalıb sərgərdan,
Fikr qıldım dəxi yoxdur mənə bir rahgüzər.
Çün məni dərdü qəmi-hicrə giriftar görüb,
Dili-sövdazədəm etdi mənə key danişvər:
Noldu kim, rişteyi-tədbiri fəramuş etdin,
Laf urardın ki, mənəm qafili-rahə rəhbər.
Genə səbr etməgi kəndimdə bilib rahi-nicat--
Ki, olur nəxli-təhəmmül verə vəqtində səmər.
Səbr qıldım neçə il, kəsb təriqin tutdum,
Görmədim zərreyi-nöqsan, mənə sud oldu zərər.
Ol ki, mənzur idi dövlət mənə oldu hasil,
Müstəte etdi məni Məkkəyə cəmiyyəti-zar,
Çıxmadı eylədigin mehru vəfa qəlbimdən,
Necə ki. atəşi-suzəndəni saxlar məcmər.
Dedim: Əvvəl gərək ol Kəbeyi-məqsudə gedəm.
Dedilər: Batil edər Məkkəni mənzuri-digər.
Dedim: Ey rahi-həqiqətdən olanlar qafil,
Bilməyirsiz nə deyib xaliqi-aləmpərvər?
Bir qərar ilə degil cümləyə təklifi-xuda.
Hər kəsin layiqi-qədrincədir icrayi-xəbər.
Sizə bir Kəbəni təklif qılıb bari-xuda,
Mənə vacibdir iki Kəbə təvafinə güzər.
Siz gedən Kəbədə çavuşlar əgər etsə nida,
Mən gedən Kəbədə rəqqas olacaq, ramişgər.
Siz gedən Kəbədə nuş etməgə abi-Zəmzəm,
Mən gedən Kəbədə saqi verəcəkdir sağər.
Siz gedən Kəbədə gər var nsə kəsmək qurban,
Mən gedən Kəbədə məşuqə verir aşiq sər,
Sizlərə hökmdür ol yerdə şikar etməyəsiz,
Mənə bu yerdə şikar etməgə min-min dilbər.
Nə rəvadır mənə tərbiyyət edən mövlanın
Etməyim xidmətini bir neçə gün şamu səhər?!
Xassə, derlər ki, o sərdari-cahan sülbündən
Səhni-afaqi müzəyyən eləyib bir gövhər.
Xassə kim, bağı-nəcabətdə açılmış bir gül,
Xassə, bitmiş çəməni-eyşdə bir sünbüli-tər.
Sayeyi-nəxli görən meyvəsin eylər xahiş,
Bu ziyarət mənə vacibdən olub vacibtər.
Barilaha, bu şəhin durri-giranmayəsinin
Yetməsin daməni-iqbalına bir zərrə xətər.

## HACI NƏCƏF BƏY MİRZƏ BAHARA YAZMIŞDIR

Ey cahan əhlinin sərəfrazi,
Vey həkimi-zəmanə mümtazi.
Əgər aləmdə var isə iksir,
Sənsən iksiri-əsl bitəqsir.
Buteyi-nəzmə xaki-nəsri tökүb,
Təpki-təb ilə bir zaman dökүb,
Zəri xalisəyar edər təbin,
Zərü sim aşikar edər təbin.
Hünər aləmdə cism olaydı əgər,
Sənə bişübhə söylənərdi hünər.
Mən xəta eylədim, dedim sənə cism.
Cismdən səndə hərf, ancaq ism.
Sərbəsər ruhi-canfəzasən sən,
Ki neçün, cism üçün səfasən sən.
Məclisində müdam eyşü sürur,
Dustun şad, düşmənin ola kur

## AŞİQ

İsmi-şərifləri Murad bəy xələfi-Qasım bəy Şirvani.
O cənab Mustafa xan cənnətməkanın xahərzadələrindəndir.
Təvəllüdü 1233-cü sənəyi-hicridə olubdur. «Əl»an Sədənrudi
mahalının Şağarxı ismilə mövsuf olan qəryəsində sakindir.
Bir cavandır, xoşsima və xoşəxlaq və təbi-şeri ilə məşhurdur.

BEYTLƏR

Gəlibdir Çin diyarından mətai-maçin almaqçun,
Xütən əmlakının malın gətirmiş karivani-zülf.

Ləbin şəhdi-zülalından içib sərməst olan kimsə,
Gətirməz yadına cami-müsəffa, abi-heyvani

Gözəllərdə nə adətdir, yıxarlar aşiqin könlün,
Görən dünyada öz mülkün xərab istərmi sultani?
NACİ

Nədir bais ki məndən şəfqətin kəm etmisən, cana!
Məni məhrum edib, əğyarı məhrəm etmisən, cana!
Əgər Fərhad gəlsə, rəxnə salmaz zərrə miqdarı
Yetən nakəslə əhdin öylə möhkəm etmisən, cana!
Sərəfraz eylədin əvvəl məni yüz lütflər birlə,
Bu layiqdirmi, axır xakməqdəm etmisən, cana!
Salıbsan canıma firqət odundan bir şərarət kim,
Ləbim xüşk ol şərarətdən, gözüm nəm etmisən. cana!
Əgər aləm fərax olsa sərasər, girməgə yer yox,
Könül məmurəsin bir gunə pürğəm etmisən, cana!..
Sitəmkeş Nacini xaki-dərindən eylədin ixrac,
Rəqibani-cəfacuni mükərrəm etmisən, cana!

Mərhəba, ey fəzl bəhri, çud kanı, mərhəba!
Mərhəba, ey aləmin hatəmnişanı, mərhəba!
Hatəmi-sani deyirlər bəzldə aləm səni,
Yoxdurur amma sənə bir şəxsi-sani, mərhəba!
Məqdəmindən çox məsərrət yetdi məhzun könlümə,
Mürdə cismim buldu guya tazə canı, mərhəba!
Əhli-fəqrə münimi-mütləq səni nemət verib,

Ey dərin fəqr əhlinin darül-amanı, mərhəba!
Bir gülüstandır həmişə əbri-feyzindən
Noxu, həm gülüstan eylədin bu Şirvanı, mərhəba!
Çün deyil tuli-süxən əhli-nəzər yanında xub,
Kutəh etdim bu mütəvvəl dasitani, mərhəba!
Naciyi-dilxəstə daim xeyrxahındır sənin,
İzzətin olsun füzun, tutsun cahanı, mərhəba!

Ey ki yox hüsn içrə mislin zümreyi-insan ara,
Vəh, nə insan, bəlkə cümlə aləmi-imkan ara.
Rövzeyi-rizvanı bəzi kuyinə nisbət qılır,
Varmı bir gül [gül] rüxün tək rövzeyi-rizzan ara?!
hər sözün bir Dürrdür, canbəxş ləlin həmçinan,
Yox sözün tək dür, ləbin tək ləl bəhrü kan ara.
Çeşmeyi-heyvanı derlər ağzına bənzər, vəli
Yox dişin tək pak dürlər çeşmeyi-heyvan ara.
Qaim olmuş canım içrə fikri-mövzun qamətin,
Ol əlif tək kim, onu qaim qılırlar can ara.
Əşkü ahım həsrətindən hər zaman tüğyan edər,
Bir sınıq gəşti kimi qalmıştənim tufan ara.
Naciyi-biçarəyəm, bir gün vüsalın bulmadım,
Rəhm qıl ki, qaldı canım möhnəti-hicran ara!

Məqami-əmn deyil bu zəmapeyi-mərdud—y
Kim, ol hanı ola daim zəmanədən xoşnud.
Miyani-ərzü səma möhnət ilə məmludur,
Cəfavü zəhmətinə yox dəxi ki həddü hüdud

Qıl ixtiyar təcərrüd ki İysiyi-Məryəm
Təcərrüd olmağıdan etdi asimanə süud.
Nə yaxşıdır kişi əmrin qəzayə tapşırmaq,
Zəhi hadayəti-tövfiq, talei-məsud!
Kəsi ki qutəvəri-bəhri-qəm deyil,
Naci, Müyəssər olmaz ona vəcdi-gevhəri-məqsud

Ey nigahı cansitan, çeşmi-siyahı dilfirib,
Qoymamışdır məndə qəmzən səbrü aramü şəkib.
Mürği-könlüm rövzeyi-kuyində hər şəb ta səhər--
Nalə eylər gül yüzün şövqində misli-əndəlib.
Hanı, gəlsinlər, ləbindən kəsb qılsınlar həyat,
İysiyi-Məryəm kimi yüz sahibi-əkfasi-tib.
Qeyrlər kim, məclisn-vəslində nuş eylər qədəh,
Rəşkdən mən xəstəyə xuni-cigər olmuş nəsib.
Ömrlərdir paybusindən məni məhrum edib,
Hiyleyi-əğyar, məkrü zülmi-bimürvət rəqib.
Daxi firqət çəkməyə tabü təvanım qalmadı,
Canə yetdim [dərd] əlindən qıl tərəhhüm, ya həbib.
Çəkmərəm can çıxsa cismimdən ətibba minnətin,
Dərdməndi-eşqə, ey Naci, nə hacətdir təbib?!
Meyfüruşa, olsun ol bəzmində bu canım kəbab,
Bir şeyim yox nəqdi-canım al, mənə vergil şərab.
Canə yetdim qüsseyi-huşyarlıqdan, nə bolur
Bir neçə sağər bilə qılsan məni məstü xərab.
İçməmiş mey, dəsti-saqidən nə mümkün ola həll
Rişteyi-əqlimdə kim, vardır bu yüz min piçü tab.
Hər kimin kim, əqli yar olsa, nədir dünyayi-dun,
Mali-dünya cəminə etməz şitabü iztirab.
Qoyma miskin Nacini heyvani-layəqil kimi,
Mərifət babın ona fəth eylə, ya fəttahi-bab.

Nə çarə eyləyim kim, ol şəhənşah
Olub düşmən sözüylə məndən igrah.
Xəyalımdan xütur eylər bu tədbir;
Qoyum yüz dərgəhinə xahü naxah.
Ona elam edim keyfiyyətimni,
Vəli əda əlindən bulmazam rah.
Saralmış arizim hicrində, yoxdur
Yanıda izzətim manəndeyi-gah.
Mənə söylər ki, naseh ah çəkmə,
Kişi daş olsa, bu qəmdən çəkər ah--
Ki, mən biçarəsin salub nəzərdən,
Nəzər əğyarə eylər gahü bigah.
Rəqibə şəfqəti həddən ziyadə,
Mənə cövrü ziyadə, lütfü kutah...

Ey könül, elma bu dünyayi-fənayə mərbut,
Mərdi-fərzanə olan cifəyə olmaz məxlut

BAHAR ŞİRVANİ

Ustadi-mahir, həkimi-bahir, ədibi-fazil və kamil, əfsəhüş-şüəra və əmləhül-füsəha mövlana Bahari-vəhyi-kəlam kim, o cənabın ismi-şərifləri Mirzə Nəsrulla bəydir, xələfi-Hacı Əbülqasım bəy Şirvani, mövladi-şərifləri şəhri-Şamaxıda vaqe olub. Əyyami-səbavətində nasiyeyi-əhvalından sitareyi-fəhmü fərasət və zəmani-tüfuliyyətində mətləi-iqbalından kövkəbi-zəkavət dirəxşəndə olduğuna görə az zamanda o büzürgüvarın zati-xöcəstəsifatı ülumi-əqli və nəqlidən bəhrəvər və əndək əvanda o büləndcənabın təbi-fərxəndəayatı fününi-nəzmü nəsrdən baxəbər olub, səfəhati-adəm avazi-kəlami sehrbəyanından dolubdur. Xəvaslər zikri o cənabın əşari-aşiqanəsi olub, ta bu günlərdə kim, sinni

-şərifi əvasiti-şəbabdadır, əşieyi-ənvari-kəmalatı «kəşşəmsi fi vəsətis-səma» və pərtövi-füruği-xəyalatı «gəl-bədri-iza təcəlla» səfheyi-ruzgardə aşikar olmuşdur. Təbi əqsami-şerə və ənvai-nəsrə tür-kiyyən və [farsiyyən iqdam etmişdir.]

Murə gər iltifatın olsa müin
Kəsb edər iqtidari-şiri-ğərin.
Pəşşəyə lütfün olsa gər məlum,
Fil xürtumuna salar xürtum.
Var ümidim ki bu xocəstə kəlam
Ki, ona «Nərgisü gül» olmuş nak,
Tapsa gər xaki-asitanənə rah
Edəsən lütf ilə bir anə nigah.
Deyəsən mərhəba bu göftarə!
Ki, gətirmiş Bahar izharə.
Sən mənim məlcəi-pənahımsan,
Şəhri-Şirvanda qibləgahımsan,
Ta cahan var bəxt yarın ola!
Lütfi-yəzdan nigahdarın ola

Bu bir neçə qəzəl o cənabın türki qəzəllərindəndir ki, təzkirənin ziynəti üçün səbt oldu:

Mey nuri cilvə eylədi cami-bülurdən,
Cami-büluri gör ki, ləbaləbdi nurdən.
Cami-bülurdə məni mey yaxdı durdən,
Əlbəttə yandırar düşə gər gün bülurdən.
Xət gəlmək ilə ruyüvə hüsnün olurmu kəm,
Nöqsan yetərmi mülki-Süleymanə murdən?
Zahid sözüylə nə bütü meyxanədən keçim,
Özü gərək keçirmi behişt ilə hurdən?
Ol gülüzar necə vəfadən əlim tutar?
Basmaz ayağını gözümə çün qürurdən.
Naz ilə bir xuramə gəl, əmvatə qıl güzar,
Ta mərhəba səsi gələ əhli-qüburdən.

Meyxanəyə Bahar şüur ilə meyl edər,
Zahid qüsurə meyl qılır, gər qüsurdən.

Hər kim ki hicri-yar ilə düşsə dəmağdən,
Heç açılarmı könlü onun seyri-bağdən?!
Saldı mey içrə yoxsa ləbi əks saqinin
Kim,bir əyağ ilə məni saldı əyağdən.
Ölməkdən özgə yox mənə eşqində bir xəyal,
Pərvanə yanmağın sevər ancaq çirağdən.
Bir laləyüzlüyar çəkib dağ sinəmə,
Ya rəb, sən etmə sinəmi xali bu dağdən!
Yetdikdə gül dodağüvə mey bilməzəm alır,
Meydən dodaq nəşəni, ya mey dodağdən?!
Sənsiz əgər bahar ola [yüz] istəməz Bahar
Nə lalə dağdən çıxa, nə qönçə bağdən.

Ləli-ləbin ki xəlq deyirlər şərab ona,
Xasiyyəti-şərab tapar yetsə ab ona.
Zülfün salıb özün oda, ta ruyüvə yetib,
Öz tutduğu işində nədir piçü tab ona.
Şirin ləbin ki ləl ürəyin qanə döndərib,
Yoxdur üzündə qanı deyən, ləli-nab ona.
Görmək şuai-arizüvi kimdə tab var,
Bitablıq edib, nə salırsan niqab ona?!
Dönə-dönə saraldı görüb hüsnüvü niyə
Girmir yerə ki qarşı çıxır afitab ona?!
Nəfyi-vücudi-nöqteyi-mövhum edər həkim,
Ağzın verəydi kaş açılıb bir cavab ona.
Zahid ki eşq küfrünü isbat edir, Bahar,
İymanə gəlməz oxuyasan min kitab ona.

Tutsam şərabı gər ləbüvə tay, həramdır,
Gər sim söyləsəm tənüvə, hərfi-xamdır.
Rüxsarın üzrə zülfüvə baxdım o qədr kim,
Gördüm ki, gün qürub eyləyib, vəqti-şamdır.
Zahid bilirmi hiç miyanın həqiqətin,

Nazik sözü nə bilsin o kəs kim, əvamdır?!
Mahi-təmam səhv ilə bir gün dedim sənə,
Hər kəs eşitdi dedi: bu söz natəmamdır.
Zalım, bu qədr könlümü qan etdigin nədir,
Qan etmədim dedim ki, ləbin ləlfamdır.
Zahid, təvafi-Kəbəni qoy, bir güzar qıl
Meyxanə içrə, gör nə səfalı məqamdır!
Dedim ki, şəhddir ləbin, ey canı cismimin,
Dedi: Görün Baharı, nə şirinkəlamdır!

Gər zülfün ilə beylə olur aşina gözün,
Axırda başimə gətirər min bəla gözün.
Ey bivəfa, cahanə gözün saldı fitnələr,
Zülfün gərək edə, niyə eylər xəta gözün?!
Könlümlə zülfüvün var idi əvvəl ülfəti,
Axırda eylədi onu da bivəfa gözün.
Məcruh sinədə genə könlüm görünməyir,
Billah, ya qaşın aparıb anı, ya gözün.
İymanım almamış eləməz qəsd qətlimə,
Həm qanımı tökər, həm edər xunbaha gözün.
Zülfü xəttin ümidimi səndən kəsər, vəli
Eylər aradə özgə işarət mana gözün.
Eylər Məsih ləlbərüvə çox nəzər, məgər
Bimardır mənim kimi, istər dəva gözün?!
Can verməgim nigahüvə müşkül degil, vəli
Hər canə müşkül eyləyəcək iktifa gözün.
Min rəng ilə Baharı salıblar bəlalərə,
Ol ağ üzün, o al yavağın, ol qəra gözün.

Derdim o məst gözlərüvün çox bəlası var.
Gördüm o qarə zülfü, onun da xətası var.
Hərgiz behiştə meyl eləməz, huri istəməz,
Hər aşiqin ki sən kimi bir dilrübası var.
Derlər bahadır ağzına can, bilməzəm neçin
Bu yox olan zadın bu qədər çox bahası var.
Hər ləhzə sinəm üzrə xədəngin qoyar başın,
Səndən genə xədəngüvün artıq vəfası var.
Müjganın ilə çeşmüvi gər sorsalar iədir?
Bimarə bənzəyir ki, əlində əsası var.
Badami gözlərindir edən xəstə könlümü,

İnnab ləblərindən o dərdin dəvası var.
Bir naz ilə xuramə gəl, ey sərv, ta görək
Hüsn içrə hansı sərvqədin iddəası var?!
Yox eybi gərçi hicrin ilə ölməgin, vəli
Hüsnün görəndə ölməgin özgə səfası var.
Fəxr eylə kim, qulamınam, ey xublər şəhi,
Hansı şəhin Bahar kimi bir gədası var?!

Zülfün kimi qaraldı günüm dudi-ah ilə,
Eşqində iddəa edirəm bu güvah ilə.
Netsin o tari-zülf ilə bu qan ola könül
Mümkünmüdür başarmaq o zülfi-siyah ilə,
Hər guşəsində gör gözüvün min bəla yatıb,
Neyçün can almasın belə göz bir nigah ilə?!
Xətt ilə yığdı dəsti-qəza hüsnü ruyüvə,
Necə ki bağiban gülü bağlar giyah ilə.
Müjgan səfini sinəmə çəkmək rəva deyil,
Gəlmək xərabə mülkə nə lazım sipah ilə?!
Derlər günahi-eşqüvə yanmaq cəza, xoşam
Yandırsalar məni oda gər bu günah ilə.
Meyxanəyə Bahar girib «ya sənəm» deyib,
Zahid girirsə Kəbəyə gər «lailah» ilə.

Bir guşədən əgər.ala çeşmin qərarımı,
Zülfün iki tərəfdən alır ixtiyarımı.
Ağzın nə məndə qoydu könül, nə könüldə səbr,
Bir yox, görün ki, əldən alıb cümlə varımı.
Bir rəhgüzardə ola kim, damənin tutam,
Şadəm ki, badə verdi fəraqın qubarımı.
Kuyində itlərinə məni həmdəm eyləmiş,
Artırmışam nə növ görün etibarımı!
Nə bir vəfa Bahara, nə bir cövr, bəs necə
Səndən xoş eyləyim dili-ümmidvarımı?!

Məhəbbət zəncirinin şeydası, məlamət
bazarının rüsvası iqlimi-məvəddət avarəsi,

kişvəri-nədamət biçarəsi, aşiqi-üftadələr
yoldaşı, Bahari-vəhykəlamın qardaşı Hacı
Məhəmməd hüseyn xələfi-hacı Əbülqasim bəy
Şirvani «Rüsva» təxəllüs-Seyrü sülukdə
Bahar ilə tövəm, qüvvəti-təbdə fünuni-şerə müsəlləm olmuş,, hicrətin 1274-cü sənəsində darülmöminini-Kaşanda da-ri-bəqayə rehlət etmişdir. O cənabın türki olan kəlamından
bu iki qəzəl nəzəri-həqirə yetib səbt olundu:

Fariq ol məhru qəmindən bu dili-qəmgin deyil,
Olmayan aşiq o şuxə qabili-təhsin deyil.
Gülşəni-hüsnü açıbdır yüz güli-rəna gözün,
Gəri əyyami-xəzandır, fəsli-fərvərdin deyil,
Nafeyi-çini onun saçına təşbih edənin
Tutma ki, billahi qövli [hərgiz] anın çin deyil
Qıldı bir dəm kuyi-üşşaqə güzar ol mahru,
Getdi gör kim, firqətindən kim cikərxunin deyil.
Guyi-eşqində qılan məva gəda çoxdur, vəli
Hiç kəs Rüsva kimi bisəbrü bitəmgin deyil.
Hər zaman dövri-fələk cövrünü kim, yad etdim,
Atəşi-ahım ilə aləmi bərbad etdim.
Bir qədi sərvi-rəvan dilbəri-tərsanı görüb,
Onu Şirin sağınıb, kəndimi Fərhad etdim.
Xaneyi-könlü fərağət qəmi qılmışdı xərab,
Dərdi-eşq ilə onu bir dəxi abad etdim.
Bu ümid ilə ki qanım tökəcək qəmzən oxu,
Dəmbədəm xatiri-məhzunumu mən şad etdim,
Gərçi Rüsva kimi canımdan əlimi yaqadım,
Aşiq öldürməgə lakin onu ustad etdim.

## QƏNNADİ

İsmi-şərifləri Əli Əkbər-ibn-Məşhədi Rəcəb Şəmaxiyyül-əsl.
Təxəllüslərin öz sənətlərinə müsəmma etmişdir. Həqiqətül-hal

o cənabın kəlami-ruhəfzaləri öz ruhəfzası kimi lətif və qəzəliyyatı öz peşməgi kimi saf və zərif, qəsaidi öz bəğləvası tək nəhayətdə dil-pəsənd, tüyuqati öz şərbətləri kimi sudmənd, həcvləri nöqli-məcalis və məhafil, rübailəri həlviyyati-əhli -kəmayil, mədhü qədhi sikəncəbin misal, məzaqi-xəlqdə xoşgüvar və əşari-lətifi güləngəbin tək məsərrəta-sar.
Əksərən məsnəvi bəhrində şer demişdir. Bəndeyi-həqiri çox həcv etmişdir.
Və bu bir neçə şerə iktifa qıldım ki, bu təzkirəyə səbt olundu
.

## OSMAN BƏY VƏ ÖMƏR BƏY

Osman bəy şəhri-Şamaxının xanzadələrindəndir. Qardaşı Ömər bəy ilə o cənab dövləti-əliyyeyi-Rusiyyədə sahibmənsəb və sahibvəzifə kimsənələrdən olmuşlar. Onlar kimi əhli-kəmal və sahibcəlal və sahibzövq kimsənələr daireyi-Şirvanə gəlmə mişdir. HOsman bəy Möhnətiyə qəzəb etmək istərkən, Ömər bə-yin məzaqına Möhnətinin sezüiün lətifəsi ləzzət edib, təzindən təavüz qılıb cənab Möhnətiyə firavan olan əpamlar və mərhəmətlər edibdir.
Əlhəq  bu iki  qardaş  kimi  yekanə daireyi-cahana kəlməmişdir. Tarixi-hiçrətin...də və tarixi-məsihiyyə-kin ...sənəsində Sultani-Rumun Fransa imdadıyla Ru-siyyə ilə davaları olduqda Ömər bəy ləşkəri-Rusda sər-ləşkər idi. Ləşkəri-rus mülki-Karsda olan zamanlar Ömər bəy dövləti-Rusiyyədən rukərdan olub, əskəri-Rumə mülhəqq oldu. Dövləti-Rum Ömər bəy məzkuru həman öz ıənsəbi və nişanı ilə qəbul edib və məvacib qərar qı-lıb, ezlərinə sərəskər etmişdir. Əlan məmaliki-Rum-da «Yaranal Ömər paşa» ismiylə məşhurdur.
Ömər bəy fərar edəndən sonra dövləti-Rusiyyə Osman bəyi tutub Sibirə köndərmişdilər. Cənab Osman bəy də Sibirdən fərar edib, İstanbulda qardaşına mülhəqq olmuşdur. Əlan Osman bəy dövləti-Rumda sahibməvacib 117ər ikisinin təbi olmağı məşhurdur və zikri-xeyr ilə adları hər dildə məzkurdur. Cənab Ömər bəyi qayətdə xoşəhval və xoşməzaq deyirlər. O büzürgüvarın xoşməzaqlığından biri oldur ki, bir gün məclisi-eyşdə bədihəku olan şairlər süxənpərdazlığa məşğul ikən əfzəlil-bədihə-guyan cənab Möhnəti Şirvani bir qafiyə üzərilə süxənpərdaz idi Əsnayi-süxəndə Möhnətinin zəbani-fəsa-hətpirayinə bir qəbih beyt cari oldu. [...]

Osman bəy Möhnətiyə qəzəb etmək istərkən, Ömər bə-yin məzaqına
Möhnətinin sözünün lətifəsi ləzzət edib, təzindən təavüz
qılıb cənab Möhnətiyə firavan olan ənamlar və mərhəmətlər
edibdir.
Əlhəq bu iki qardaş kimi yeganə daireyi-cahana gəlməmişdir.
Tarixi-hicrətində və tarixi-məsihiyyəkin .sənəsində
Sultani-Rumun Fransa imdadıyla Rusiyyə ilə davaları
olduqda Ömər bəy ləşkəri-Rusda sər-ləşkər idi. Ləşkəri-
rus mülki-Karsda olan zamanlar Ömər bəy dövləti-Rusiyyədən
rugərdan olub, əskəri-Rumə mülhəqq oldu. Dövləti-Rum Ömər
bəy məzkuru həman öz mənsəbi və nişanı ilə qəbul edib və
məvacib qərar qılıb, özlərinə sərəsgər etmişdir. Əlan
məmaliki-Rumda «Yaranan Ömər paşa» ismiylə məşhurdur.
Ömər bəy fərar edəndən sonra dövləti-Rusiyyə Osman bəyi tutub
Sibirə göndərmişdilər. Cənab Osman bəy də Sibirdən fərar
edib, İstanbulda qardaşına mülhəqq olmuşdur. Əlan Osman
bəy dövləti-Rumda sahibməvacib kimsənələrdəndir. Və Qüstəntəniyyədə
mərtəbeyi-mühəndislik ilə məşhurdur.
Amma Ömər bəyin mərtəbəsi Osman bəydən
əladır.

Bu neçə beyt o cənablardan təbərrükən
bu təzkirəyə səbt olundu:

QƏZƏLİ-OSMAN BƏY

Eşqimiz sanma o şuxun xət ilə xalınadır,
Ya ki keysuyi-siyahına, ruxi-alınadır.
Məni ərbabı özün surətə etməz aşiq,
Bizim aşiqliyimiz ol məhin əhvalınadır.

QƏZƏLİ-ÖMƏR BƏY

Ol məhin sanma ki, eşqim ləbü ruxsarınadır.
Ya ki şəhla gözünə türreyi-tərrarınadır.
Bütə etməkdi sitayiş, eləmək surətə meyl,

Eşqimiz, zahid, onun şiveyi-ətvarınadır.

RAĞİB

İsmi-şərifi Məşhədi Qəffar xələfi-Hacı
Məhəmməd Səid Şirvani. Bir cavandır əhli-
hal və bir şairdir sahibkəmal. Sahibi-
təbi səlim və səliqeyi-müstəqim. Cümleyi-tüccardəndir və
təbəqeyi-əxyardən. Təvəllüdi-şərifi sənəyi-1251-də şəhri-
Şamaxıda vaqe olubdur. Bavücudi ki, əşardə
qüvvəti-təbi
vardır, lakin gah-gahi şer demişdir.
Bu bir neçə [qəzəl] onun şerlərindəndir:

Səbrim kəsib fələk genə aldı qərarımı,
Ayırdı məndən ol sənəmi gülüzarımı
Bir binəva idim, dolanırdım vəleyk çərx
Göstərdi bir məhi, genə kəsdi mədarımı.
Sübhi-vüsal idi mənə rüxsarı, zülfü leyk,
Şam olmamış qəra elədi ruzigarımı.
Ey abi-çeşm, eşq odu yandırdı cismimi,
Qoyma əbəs yaxıb, yelə versin qubarımı.
Açmış nəsimisübh gülüstanda lalə, leyk
Rağib, tutubdu qəm bu dili-dağidarımı.

Qanlar içirtdi qönçeyi-xandanə ləblərin,
Yüz tənə vurdu ləli- Bədəxşanə ləblərin
Cam içrə ta olunca müqabil dodağuva,
Döndərdi badənin ürəyin qanə ləblərin.
Kafər,nə təşnədir dodağın qanım içməyə
Rəhm eyləməzmi hiç müsəlmana ləblərin?!
Sirri-dəhanüvü nə bilir qeyrlər ki hiç
Vaqif degül bu nöqteyi-pünhanə. ləblərin
Zəncirə salmağa genə divanə Rağibi,
Verdi icazə zülfi-pərişanə ləblərin.

Gecə zülfün kənar etmə rüxündən,mahitab etmə

Səhər ruxsarını göstərmə, rəşki-afitab etmə!
Gülü gülzardə etmə xəcil, öz rəngü buyindən,
Ərəqdən su səpib rüxsarüvə, rəşki-gülab etmə!
Xətü xalə, gülüm, ləli-ləbin şəhdini bildirmə,,
Yığıb murü məgəs rüxsarə, yüz min inqilab etmə!
Genə ol atəşi-rüxsarüvə çox şölələr vurma,
Yaralı könlümü odlarə yandırma, kəbab etmə!
Ləbindən qan içən könlüm şərabi-nabə meyl etməz,
Yeri, Rağib, mənə bihudə təklifi-şərab etmə!

Sənə göftari-təlx etmək yəqin meyxarəlikdəndir.
Mənə xunin sirişkim söyli qəlbi yarəlikdəndir.
Məni avarəlikdən mən edər naseh, vəli bilməz
Ki, eşq əhlinə kəsbi-mərifət avarəlikdəndir.
Əlim kutahdır, yetməz qara keysusuna, neylim,
Mənə məhrumluq dünyadə bəxtiqarəlikdəndir.
Dedim göz yaşıma, çox gəzmə ruxsarımda, ol sabit!
Dedi: Təsir vermək kövkəbə səyyarəlikdəndir.
Bəlavü möhnəti-hicranə, Rağib, yoxdu bir çarə,
Bu dərdə səbri derlərsə dəva, biçarəlikdəndir.

Gərək sən tək qaragöz dilrübalər niknam olsun,
Nə kim, sağər tutub məsti-xərabi-ləlfam olsun.
Meyi-təlxi o şirin dəblərə hər kim həlal etmiş
Görüm, ya rəb, ona öz verdiyi fitva həram olsun.
GECƏ zülfünlə həmrəng olduğuyçün aşiqi-miskin
Qəhər söylər ki, ya rəb, neylərəm bu sübhü, şam olsun.
XƏTİN ləşkər çəkib gər tutsa mülkü hüsnünü, ey şəh,.
Müjən səflər çəkib qoymaz o mülkü binizam olsun.
Müqəvvəs qaşların taqın hilalə oxşadan şəxsin
BELƏ təşbihi-naqislə görüm ömrü təmam olsun.
Ləbin vəsfində hər şair deyə bir şer Rağib tək,
Müşəxxəsdir gərək xəlq içrə çox şirinkəlam olsun.

SAĞƏRİ
Bu bir ieçə qəzəl o cənabın əyyami-şəbabında dedigi qəzəllər cümləsindəndir:

Rəmz ilə yarə ərz et, badi-səba, pəyamım
Əğyar eşitsə müşkül, zinhar çəkmə

Söylə ki, verdi canın, eşqində kamil ol
Gər lütf ilə soruşsa:Noldu mənim qulamım

İzhari-iltica qıl, naz eyləsə, niyaz et!
Öp xaki-asitanın, pünhan yetir səlamım

Dərdü qəmi-fəraqə nafe bilib şərabı,
Hərçənd sənsiz içdim, zəhr ilə doldu camım

Gəldikcə şurü sövda əql eylədi həzimət,
Tutdum cünun təriqin, viranələr məqamım

Gördükdə zərdi-çöhrəm, xəndan olur rəqibim
AĞ arizim qızarsın, ey rəşki-ləlfamım

Cövr etmə, qıl tərəhhüm, ey padişahi-xubam
Qəm payimaliyəm mən, yox möhnətə dəvamım

Heç kimsə guş tutmaz əşari-Sağəri tək
Məlum olur ki, düşmüş təsirdən kəlamım

## BİXUD

Müstəğrəqi-müşahideyi-dəryayi-cəmal və məhvi-mütalieyi-səhifeyi-rüxsarü xəttü xal, sevdayi-məhəbbətin aşiqi-rüsvası və səhbayi-məvəddətin bixüdü şeydası, məhbubi-gülüzarlar sinəfikarı və məşuqi-lalərüx-sarlar dağdarı, suxteyi-atəşi-fərah və güdaxteyi-buteyi-iştiyaq, Molla Ağa Bixud təxəllüs ibni-Hacı Molla Təqi Şirvani. Təvəllüdi-şərifləri xitteyi-Şirvani-xüldbünyanda olmuş, bir cavandır

paksiyrət və pakdamən, ticarətpişə və xeyrəndişə, nəcibxislət, dərviştə-biət, fəhim və zirək, ürəfaməslək. Sinii-şərifi otuz saldə, qüvveyi-təbi sərhəddi-kəmaldə. Əlhəq ki, bir şairdir şirinkəlam və əşari-lətifi pəsəndideyi-xasü əvam. Əksər kəlamı aşiqanə, bəlkə atəşi-dərunundən
bir zəbanə.
Molla Əhməd Nərağı kim, o cənabın elmi-hikmətdə sərriştəyi-tammi vardır, «Kitabi-Meracüs-səadət»də buyurmuşlar kim, əksər məhəbbəti-bəni-növi-insan fit-ridir və təbii.
Nə ixtiyar ilədir
və nə kəsbü təhsilə möhtaçdır. Pəs, hər bir kəsdə
ki məhəbbət
naqisdir, həmən qədər onun fitrəti məyubdur VƏ cibilləti fasid.
Ol ittihad ki mühübb ilə məhbub mabeynində vaqe olur, məlumdur ki, məhəbbəti-təbindən sonradır. Və qudəmayi-əhli-hikmət təsrih qılıblar ki, qivami-cümleyi-mövcudat məhəbbətə mənutdur, intizami-silsileyi-mümkünat onunbirlə mərbut. heç bir könül yoxdur kim, ləmeyi-məhəbbətdən onda nur və heç bir baş yoxdur ki, nəşeyi-məvəddətdən onda şur olmasın.
Əgər məhəbbət olmasaydı ümmühati-süfliyyə, abai-Ülviyyə izdivacına tən verməzdi. Onların müzavicətin-dən məvalidi-səlasə doğulmazdı. Ülfəti-əczai-mürək-kəbat onun əsərlərindəndir. Nişat və rəqsi-əflak şuri-səhbayi-məhəbbətdəndir, mərkəzi-xakın məst və bihuşluğu sükri-badeyi-məvəddətdən.
Əlavə bər in cənab rəsuli-əkrəm və zübdeyi-bəni-adəm buyurmuşlar kim:Lacərəm aləmi-ərvahdə münasibəti-ruhani
olduğu səbəbdən məzkur Bixud bu aləmi-əcsamdə bir nigari-sərvqamət və mahtələt eşqindən ki cəmali-cahanarası ilə xitteyi-Şirvan rəşki-fəradisi-cinan idi, zar və biqə-rar olub, dövləti-didarına talib və xəridar olmuşdu.Həmişə dili-qəmnakı məhəbbəti-dildar ilə məşhun peyvəstə dideyi-nəmnakı şövqi-cəmali-yar ilə pürxun. Gahi xəzani-fəraqdə tərənnümsaz va gahi bəhari-vüsaldə zümzüməpərdaz olub, münasibi-vəqt əşari-aşiqanələr və möhnətamiz olan təranələr faş edib,

dilrişlər qəlbinə nəməkpaş olmuşdur.
Bu bir neçə qəzəl və müxəmməs o
cənabın zadeyi-təbi-bəlağətasarlərindən
dir:|

Arizü eylər könül kim, cism ara min can ola,
Ta ki xaki-payüvə hər dəm biri qurban ola.
Qanımı tök, canımı al, leyk yıxma könlümü,
Çünki öz mülkündü, ey şəh, istəmə viran ola.
Əşki-çeşmim çeşmə-çeşmə çeşmi-şuxündən cüda
Ol qədər cari olub kim, az qılıb ümman ola.
Rəşkdən kur olmaq istər göz, və lakin istəməz
Kim, səni əryar ilən görmək mana imkan ola.
Həsrətin könlümdə can versəm, qədəm qoy başıma,
Bəlkə didarınla can vermək mənə asan ola.
Yoxdur insafın məgər, insafına qurban olum!
Bu nə mürvətdir ki, hicranında könlüm qan ola?!
Maili-hüsnündü Bixud, hərgiz etməz arizu
Səndən özgə dilrüba, gər huriyü qılman ola.

Könül, bu gün ki müyəssərdi vəsli-yar sənə.
Təğafül etmə, baxar kəc bu ruzigar sənə.

Dusta, alma xəbər hali-dili-zarımdan,
Rövzənə açma qəmə sineyi-əfkarımdan.
Yoxdu nitqim ki edəm şərh dili-zar sənə,
İstəsən bilməgə, bil dideyi-xunbarımdan.
Nə gecəmdir gecə, billəh, nə günüzdür günüzüm,
Düşmüşəm ta ki cüda yari-vəfadarımdan.
Barilaha, görüm eşq atəşinə yansın o kəs
Ki, məni ayrı salıb zülm ilə öz yarımdan!
Nə o məhparə vəfasızdı, nə gərdun gəcrov,
Düşmüşəm odlara öz bəxti-siyəhkarımdan.
Bəsdi, Bixud ki tutub aləmi ahü zarın,
Qorxuram zarə gələ yar mənim zarımdan.

Ruzi-vidai yarın od saldı cismü canə
Kim, şəm tək vücudum hər dəm çəkər zəbanə.
Cövr ilə aldı gərdun cananımı əlimdən,
Ya rəb, görüm xərabə qalsın belə zəmanə!
Ey çərxi-dun, ayırdın məndən o məhliqanı,
Qoydun məni-həzini hicrində yanə-yanə.
Hüsni-cəmalın, ey məh, tövsifin etmək olmaz,
Övsafi-zülfü xalın gəlməz dilə, bəyanə.
Dil səndən özgə yarə meyl etsə qanə dönsün,
Heyhat, bir də sən tək dilbər gələ cəhanə!
Göydə hilalı görcək Bixud qaşın sağındı,
Bax şuri-eşqin anı saldı bu kəç gümanə.

Gədalıq dərgəhündə şövkətimdir, izzü cahımdır,
Qapın Beytülmüqəddəs, asitanən səcdəgahımdır.
Könüldə tiri-qəmzəkdən varımdır zəxmlər hər yan!
Gözümdən qətrə-qətrə bu axan qanlar güvahımdır.|
Rəvadır şəhneyi-eşqin qıla hər dəm siyasətlər--
Ki sən şəh, mən gəda, əlbəttə kim, eşqin günahımdır.
Xəyali-arizindir şamlər şəmi-şəbistanım,
Sənayi-zülfü xalın dildə virdi-sübgahımdır.
Qaralmış kövkəbi-bəxtim ki dildarə əlim yetməz,
Bu tirəbəxtlik, ey Bixud, öz təsiri-ahımdır.

Hansı aşiq can sənə mənkimi qurban eyləmiş,
Hansı məşuq aşiqin sən kimi nalan eyləmiş?
Hansı bülbül gülçün etmiş sinəsin mən kimi çak
Hansı gül sən kimi bülbül bağrını qan eyləmiş?
Hansı seyd olmuş kəməndi- zülfüvə mən tək əsir,
Hansı səyyad öz şikarın təşnə büryan eyləmiş?!
Şəmi-ruyün hansı məhfil içrə olmuş şələvər,
Buyi-muyün hansı bəzmi ənbəristan eyləmiş?
Kim fənayə verdi nəqdi-ömrünü Bixud kimi,
Kim mənim tək canını canapə qurban eyləmiş?

Aşinalıq bu fəna mülkdə əfsanə imiş?!
Ah, səd ah, bu viranə nə viranə imiş?!
O kəsi kim, özümə dost sanırdım, ey dil,
Aqibət oldu əyan kim, mənə biganə imiş.

Könlüm, etmə bu qədər ah, gözüm, tökmə sirişk
Ki, cahan ruzi-əzəldən bizə qəmxanə imiş.
Dönəsən qanə, könül, oxlanasan yüz yerdən,
İçdiyin gör necə qəm-qüssəli peymanə imiş
Hər kəsin dəhrdə bir həmdəmi varmış Bixud,
Sənə həmdəm qəmü qüssə, dili-divanə imiş.

Dolanım başuva, ey nazlıca yarım, bəri bax!
İşvəli, qəmzəli, çəmxəmli nigarım, bəri bax!
İşvə ağaz qılıb, səbrimi tarac eləmə,
GetDi əldən dəxi aramü qərarım, bəri bax!
Xəm yemiş qamətim əbrulərinin qurbanı,
Gözlərin sədqəsi bu cismi-fikarım, bəri bax!
Bu cəfadidə dil ol kakili-müşkinə fəda,
Zülfi-pürtabına qurban təni-zarım, bəri bax!
Can nisar etməgə amadədi Bixud, gözəlim,
Gər desən lütf ilə, «ey aşiqi zarım, bəri bax!»

Könül aludə qılıb bir büti-əyyarə məni,
Edib aşüfətə əcəb dilbəri xünxarə məni.
Qəmi-ruyilə günüzlər ciyərim qanə dönər,
Gecələr zülfü xəyalilə basar qarə məni.
Dedim, ey dil, həzər et naireyi eşqindən,
Yaxma, allahı sevərsən, yanar odlarə məni.
Allah, alla h, nə könüldür ki, usanmaz bir dəm
Ləhzə-ləhzə gətirər nalə ilə zarə məni?!
Dedim aldanma, könül, nərgisi-cadulərinə,
Həq rizasına əsir etmə bu səhharə məni.
Salacaq çöllərə Məcnun kimi axır, bilirəm
Bu qan olmuş, qəmə batmış, dili-sədparə məni.
Nola Bixud ki o bimehrü büti-aşiqküş
Bir nigah ilə alıb canımı, qurtarə məni.

Bir novşüküftə gül alıb əldən qərarımı,
Tarac edibdi səbrimi, həm ixtiyarımı.
Şəhla gözü açıb üzümə babi-dərdü qəm,

Xəm türrəsi göyə yetirib ahü zarımı.
Müşkin hilali qamətimi yayə döndərib,
Zülfi-siyahi tirə edib ruzigarımı.
Səbrim kəsib, qərarım alıb, taqətim üzüb,
Qarət edib bu şux, görün, cümlə varımı.
Derdim ki, qoy qədəmlərü və can nisar edim,
Eşq içrə ta sübut eləyim etibarımı.
Pünhan təbəssümündə bu rəmz oldu aşikar,
Yəni ki çək ölüncə bu nəhv intizarımı.
Bixud, budur ümid ki təhsin edə sənə
Seyyid görəndə bu gühəri-abdarımı.

Ey qoyan könlümə qan, oldumu hüsnün fani,
Tutdumu xarü xəsi-xüşk o tər bostani?!
Əsdimi badi-xəzan, eylədimi əfsürdə
Bağı-hüsnündə gülü, sümbülü, həm reyhani?!
Gəldimi ləşkəri-xət arizüvə fövcbəfövc,
Saldımı məmləkəti-hüsnüvə bu talani?!
Türki-məstin, necəsən, qaldımı ox atmaqdan,
Sındımı qaşlaruvun yayı, müjən peykani?!
Varmı yadında, deyərdim ki, sənə, eyləmə cövr,
Yetər axır sənə bu cövrlərin nöqsani?!
Şükrlilləh ki mənim surətə düşdün axır,
Gəldi tez başə o naz eyləməyin dövrani.
Varmı yadında ki qullar kimi boynuburulu
Qabağında sənə əcz eylər idim pünhani?!
Həsrətində ləbüvün əşk əvəzi didəmdən
Qətrə-qətrə saçılardı ciyərimin qani.
Arizu eylər idim bircə təkəllüm edəsən.
Ta qılam canımı şirin ləbüvün qurbani.
Qan qoyardın iki kəlmə danışıncan ürəyə,
Ta ki bir kəlmə danışsaydın alardın cani.
İmdi səd şükr, o gül bərginə bənzər dodağın
Olub əfsürdə, gedib rəngi, qaçıbdır qani
Demədimmi sənə çox hüsnüvə məğrur olma--
Ki, bu məğrurluğun tez yetişər payani

Əsdimi gülşəni-hüsnün tərəfə badi-xəzan,
Tapdımı rəxnə o məğrurluğun bünyani?!
Düşdümü tabü təravətdən o tər türrələrin
Ki, şəbih eylər idin müşkə həmişə ani.
O gözəllik ki həmişə ona fəxr eylərdin,
Al ələ ayinə, bax, gör o gözəllik hani?!
Bəli, bir şah ki zalım ola məzlumların
Naləsindən dolanar bəxti, dönər dövrani.
Bəsdi, Bixud ki cəmal əhlinə adətdir bu,
Bivəfa olmasa, olmaz işinin samani.

## MÜXƏMMƏS

Başim, ey məh, guşeyi-ləlində xalın sədqəsi,
Cani-şirinim ləbi- şəkkərmisalın sədqəsi,
Yayə dönmüş qamətim müşkin hilalın sədqəsi,
Tablar çəkmiş tənim novrəs nihalın sədqəsi,
Dideyi-giryanım olsun gül cəmalın sədqəsi!

Xəstə canım nərgisi-bimarına olsun fəda,
Kutəh ömrüm türreyi- tərrarına olsun fəda,
Canım, ey məh, şiveyi-rəftarına olsun fəda,
Rəngi-pəcmürdəm rüxi-gülnarına olsun fəda,
Zəfərani arizim rüxsari-alın sədqəsi!

Eşqüvə düşdümsə bir dəm olmadım şad, ey sənəm,
Hasilim eşqində ancaq oldu ənduhü ələm,
Həmdəmim möhnətənisim qüssə, əhvalım dijəm,
Ömr əgər keçdisə hicrində bir növ ilə, nə qəm,
Kakilin qurbanı, xaki-payimalın sədqəsi!

Vəslini mən səhl sanmışdım, vəli düşvar imiş,
Hasilim eşqində ancaq daim ahü zar imiş,

Nərgisi-məstin əcəb aşiqküşü xunxar imiş,
Dün eşitdim qətlimə, zalım, xəyalın var imiş,
Müntəzir qoyma, gəl öldür, ey xəyalın sədqəsi!

Bixudi-dildadə hicrində keçirdir ruzigar,
Didə nəmli, sinə dağlı, tən yaralı, can fikar,
Bəxt kəm, tale yaman, qamət kaman, dil biqərar,
Surəti-əhvalına qıl bir nəzər, ey gülüzar,
Nuri getmiş gözlərim müşkin qəzalın sədqəsi!

Ey sərvqədim, laləüzarım, qara gözlüm,
Ey mahrüxüm, türfə nigarım, qara gözlüm,
Eyşim, tərəbim, bağü baharım, qara gözlüm,
Fəxrim, şərəfim, şahi-kübarım, qara gözlüm,
Qurban sənə bu cani-fikarım, qara gözlüm!

Ey zülfü siyəh, qaşi kəman, kakili-reyhan,
Səbr etməyə çox səy elədim, olmadı imkan,
İmdi ki, gedib ömr qəminlə, verirəm can,
Dəfn eylə sitanında məni, ey şəhi-xuban,
Olsun barı kuyində məzarım, qara gözlüm!

Aşiq sənə oldumsa, könül eyləmədim şad,
Göz yaşı ənisim olub, oldum qəmə mötad,
Qeyrilərə munis olub, oldun mən ilən yad,
Etdin dili-biçarəmi bərbad, evin abad!
Keçdi qəmi-hicrinlə mədarım, qara gözlüm!

Kəc getdim əzəldən ki könül verdim, inandım,
Dövlət səni bildim, dəxi hörmət səni sandım,
Nari-qəmə yandım, qəmi-sevdayə boyandım,
Səbr eyləyib əyyami-fəraqında dayandım,
Yox indi nə səbrü nə qərarım, qara gözlüm!

Fikr etmə ki, zülfün mənəənduhü bəladır,
Cövrün mənə şəfqət, sitəmin eyni-vəfadır,
İnnabi-ləbin dərdi-nihanimə dəvadır,
İnsaf elə, qurban sənə, bax, gör nə rəvadır,

Bu həsrəti mən kurə aparım, qara gözlüm?!

Bixud necə səbr eyləsin, ey kani-lətafət,
Səndən görə möhnət, eşidə tənü məlamət,
Nə səndə vəfa var, nə məni-xəstədə taqət,
İndi ki vəfasızlıq olubdur sənə adət,
Öldür məni, rəhm eylə qutarım, qara gözlüm!

Bu inşai-türki Bixudi-məzkurun zadeyi-təbi-bəlağət məşhunlarındandır ki, səbt olundu: Müdəbbiri-karxaneyi-səadətü iqbal və müəssisi-əsasi-izzətü əclal, əni həzrəti-bəxti-bizəval və əqdəsi-talei-zülcəlal hüzuri-pürnurlərinə nəhayəti-əczü inki-sar ilə məruz olunur ki, neçə il mundan əqdəm Sultani-ruh cavanlıq camından sərşar olub və məğrurluq badəsindən gözlərin xumar tutub xabkahi-qəflətdə naz uyqusuna getmişdi və məmləkəti -bədəni ki öz məqərri-səltənətiydi, xüdsər qoyub məcariyi-ümuri-səltənətdən qafilü bixəbər düşmüşdü. Nagah dilbərlik babilista-nının cadugərləriidən bir nəfər və gözəllik gürcüstanının əyyarlərindən bir hiyləgər qarətgərlik əzmklə qədəm şəhristani-bədənə qoyub, əqalimi-bədəni ahəstə-ahəstə dolanıb axtardığı halda, bir məkani-şərifə yetişdi ki, o məkanın mətai-giranmayələri səbrü qərar və o xəzinənin gövhəri-pürbəhaləri taqət və ixtiyar idi.
Təmamın qarət edib hiyni-müraciətdə güzarı könül büstanına düşdü.

nəzm

Nə bostan, filməsəl firdovsi-ali,
Nə bostan, cənnətül-məva misali.
Nə bostan, hər tərəfdə min gül açmış,
Cahana hər gülü min ətr saçmış.

Nə bostan, sünbülü keysuyi-xuban,
Nə bostan, laləsi ruyi-nikuyan.
Nəhalinovcavanlar qamətindən,
Gülü məhru gözəllər surətindən,
Ləbi şirinsuxənlər çeşməsarı,
Güli-həmrası dilbərlər üzarı,
Güli-nəsrini məhrulər cəbini,
Cəbini nazəninlər yasəmini.

Əlqərəz, o cədugər və məkkar ruhu öz gəlməyindən xəbərdar və gəlib çapdırdığın aşikar etməkçün həmən bostanın vəsətində bir ağac əkib getdi. Belə ki, o ağaca bizim zəmanəmizdə məhəbbət deyərlər. Xülasə, bir müddətdən sonra xümari-qəflət dideyi-ruhdan zail olub məmaliki-bədənin seyr və səyahətinə mail oldu. Əsnayi-səyahətdə könül hücrəsini səbr və qərar mətaindən xali və qəlb xəzinəsini taqət və ixqiyar nəqdindən ari görüb nədamət barmağın həsrət dəndanına tutdu və qayəti-heyrətdən özün unutdu.Rüfət tacın təəssüb topraqına vurdu və peşimanlıq gülün izzət başına savurdu. Dəxi göz dolandırıb ətraf və cavanibə nəzər saldıqda öz təmir etdigi bostanda bir nihali-təəccübanə və öz abad qıldığı gülüstanda bir dirəxti-biganə müşahidə etdi ki, çox bibak və küstaxanə baş fələki-əlayə çəkib və şaxələri həmağuş, bir-birindən keçib və hər şaxəsi min yapraq açıb və hər yaprağı afitabi-fərəh qabağında bir hicab olub və hər vərəqi şəmi-sürur qarşısına bir pərdə asıb. Ruh bu haləti görüb qəzəb ərrəsinə hökm buyurdu ki, o ağacın şaxələrin kəsib yerə salsın və o nihalın budaqların qırıb oda yaxsın Ərreyi-qəzəb ruhun fəramanına binaən hər budaq ki o ağacdan cüda qılırdı, yerində ikisi peyda bulurdu. Hər şaxeyi ki ol nihaldan qələm edirdi, əvəzinə beşi ələm olurdu. Ta bu günlərəcən ki Sultani-ruh ərreyi-qəzəbə itab və xitab edib hökm buyururdu

ki, o ağacı qət eləsin. Əlhal ərreyi-qəzəb həman
 ağacı kökündən qət edib, lakin rişələri
hənuz baqi qalıbdır.

İmdi qorxuram ki, genə o rişələrdən bir nihali-dil
gər və bir dirəxti-əlahiddə nümüvv edə. Əmma afitabi-reyrət
neçə gündür ki, tabişdə və o nihalın rişələrin
 qururutmaqçın səy
və kuşişdədir. Əgər bir neçə günidi-kərəcan həman
cədugəri
pürfən əfzungərlik səhabının )arani-lətafətilə
abyarlıq etməsə,
afitabi-qeyrətin tabişi-hərarəti o rişələri
qurudacaqdır.
Əla haza səadət və iqbal firəngistanının
maşınsazlarından və nikbəxtlik ingilistanının
naxsuzpərdazlarından isqida və təvəqqö olunur ki,
Məsihayi-qeyrət xatirinə və Məryəmi-həmiyyət rizasına
kibriyalıq fuladından və təkəbbür ahənindən bir
maşın
 tətəbbö edib göndərinlər ki, əgər xudanəkərdə o
şux
çadugər və o ğəmmaz fitnəgər füsungərlik
 səhabınıkönül bostanının üstünə
çəksə, həmən naxsuz ilə vurub tarü mar və
pərakəndə edək
Vəssəlam.
Sənəyi-1275, fi 9 şəhri-zilqədə.

Həmən zəlzəleyi-şədid ki Şamaxıda vaqe oldu və
müddəti qırx kün yer aram tutmayıb
gah-gah hərəkət qılırdı, çox adam
həlak olub və çox əşxas məcruh olmuşdu.
Təvarixi-qədimlərdən məlum olunur ki, həmişə Şamaxıda
zəlzəleyi-şədid vaqe olubdur və çox vədə bu
 şəhrin köçməsinə zəlzələ bais olubdur.

Bixud məzkur bu bir neçə beyti həman zəlzələdə
rişteyi-nəzməçəkibdir:

qitə

Şəmaxi şəhri yeksər oldu viran,
Edər hər guşədə bayquşlar əfğan
Buxarati-zəmin etdi təməvvüc,
Şikaf olduqda yerlər tapdı nöqsan.
Görən ol halı eylərdi təsəvvür,
Qiyamət qopdu, dünya oldu payan.
Düşüb ənvai-məxluq iztirabə,
Təmamən xəlq olub «vanəfs» guyan,
«Tərənnasə sükarən» [1] ayəsinə
Naticə oldu ol saət nümayan
Münəccim ki sölərdi ərzi sakin,
Xilafinə yetib ol gündə bürhan.
Xəyal eylərdi ol halı görən kəs--
Ki bü tariki-mərkəz oldu pərran.
Təzəlzül düşdü şəhrə, uçdu evlər,
Nə məscid qaldı, nə bazarü dükkan.
O eyvanlar ki baş çəkmişdi çərxə,.
Dağıldı, oldu topraq ilə yeksan.
O əsnadə qəribi-yüz nəfər kəs,
Qalıb daş içrə cümlə oldu bican.
Dağıldı Bixüdun qəsri, otağı,
Yetiş fəryadına, ya həyyü sübhan

[İstinad1: Qiyamətdə insanları sərməst kimi görərsən. ]

QƏBULİ

Sədnərud Şirvanın mahallarındandır. CƏMİ
Otuz iki para kənddir təmamən kərmü siyrdir
Göyçay ki Şah dağının qiblə tərəfindən və

Baba dağından və sair cibali
-əzimələrin çeşmələrindən və qar sularından
cari olur, ol mahala caridir. Bağatlarında
çox əla əbri-şəm, innab,
şaftalu hasil olur. Amma fəsli-tabistaida
suları üfunət
etdiyi cəhətdən çox məgəsi-pürazar olur və
Qaraxıdır ol qəryələrin cümləsindəndir.
Cənab Mir Hüseyn əfəndi ki, Qəbuli təxəllüsdür,
ol mahalın ürəfalərindəndir.
Təvəllüdi-şərifi 1240-cı
sənədə qəryeyi-Qaraxıdırda olub. Vəfatları
1270-ci səkədə vaqe olubdur. Bu müstəzadı
Petros bəy ibn-Keşiş. ol
mahala Hakim olan zamanları onun şənində
rişteyi-nəzmə çəkibdir ki, nəzəri-həqirə yetdi.

## MÜSTƏZAD

Ey mədəni-ədlü kərəmü cudü səxavət,
Sərdəftəri-aləm...
Vey məxzəni-kənci-kuhəri-fəhmü fərasət,
Ey rütbəsi əzəm...

## ZÖVİ

Səhrayi-məhəbbətin sərgərdani və beydayi-müvədd-
tin pərişanı. Təcərrüd bustanının sərvi-azadəsi,
Sağəriyi-süxənpərvərin xahərzadəsi Molla Məhəmməd
Zövi təxəllüs hənuz sinni-şərifi sərhəddk-kəmalə
yetməyibdir, və ünfəvani-şəbabından bir o qədər
getməyibdir ki, vücudi-şərifi ənva və əqsami-kəmalət ilə
müzəyyən və nasiyeyi-əhvalından sitareyi-fəhmü fərasət zahir
və mübərhəndir. Təvəllüdi-şərifləri hicrətin min iki yüz

əlli doqquzuncu ilində xitteyi-Şirvandə vaqe olub. Ta bu günlərdə ki iyirmi beş sinninə qədəm basmışdır, elmi-ərəb və fars feyzin taliblərə yetirməkdə və tüllablardan gülüstani-zatında küli-mərifət bitirməkdədir. Təbi hər növ əşari-farsi və ərəbi və türkidə qadir və imlavü inşadə mahirdir. Əlhəqq xətti-şikəstədə İmadə, nəsxü təliqdə Rəşid və Yaqutə bərabərdir. Ümmidvarəm ki, hər bir hünərdə dərəceyi-rüfət bula və avazeyi-kəlamından aləmlər dola.

Bu məsnəvi əyyami-fəraqdə dediyi şikayətnamələrdəndir:

Əla, ey sərvəri-xeyli-nikuyan,
Əla, ey padşahi-laləruyan,
Nə müddətdir məni-məhcurü zarə,
Tərəhhüm etməyib, etdiz kənarə.
Və lakin bilmədim noldu günahım,
Həbibim, qibləgahım, padşahım,
Ki, cövr ilə vüsalından ayırdın,
Ləbi-şirinməqalından ayırdın.
Rəqibi-bihəya pəndini tutdun,
Məni bilmərrə yadından unutdun.
Fəramuş eylədin əhdü vəfanı,
Unutdun mən çəkən cövrü cəfanı.
Sitəm qılma məni-naşadə, ey dust,
Gətir ol günləri bir yadə, ey dust--
Ki, açılmışdı gülzari-cəmalın,
Yeni bər vermiş idi novnihalın.
Vəli ol gülşəni-meynunişanə,
Yox idi bülbüli-şirinfəsanə.
Görüb rüxsarını, ey mahparə, .
Mən oldum bağı-hüsnündə həzarə.
Çəkib, ey sərv, əfqani-dəmadəm,
Səni mən eylədim məşhuri-aləm.
Özün müxbirsən, ey xurşidrüxsar--
Ki, eşqində nələr çəkdim məni-zar.
Rəvadırmı, mənim tək biqərarı,
Qəmi-dövran əlindən dilfikari,
Giriftar eylədin hicran əlində,

Nə hicran, dərdi-bidərman əlində.
Mənim tək olmasın kafər də, ya rəb,
Qəmü ənduhi-hicr ilə müəzzəb.
Nə şərhi-dərdi-yarə qüdrətim var,
Nə ənduhü fəraqə taqətim var.
Əla, ey mahi-bimehrü sitəmkar,
Cəmalın sədqəsi bu cani-əfkar,
Xəmidə qamətim qaşın fədası,
Bu qəmdidə könül başın fədası!
Sənə qurban olum, mən xəstə halı
Dəxi gəl eyləmə qəm payimalı!
Ki qalmıb hicrinə, ey mahi-xüdkam,
Nə canımda təvan, nə dildə aram.
O gündən kim, vüsalından cüdayəm,
Qəmü ənduhü dərdə mübtəlayəm.
Olub zülfün təki, ey gülüzarım,
Pərişan, tirə yeksər ruzgarım.
Olub qaşın təki, ey nuri-didə,
Qədim ənduhi-hicrindən xəmidə.
Üzün Hicrində cismim, ey cəfakar,
Olubdur nərgisin tək zarü bimar,
Dəhanın həsrətindən, ey nigarım,
Əriyib, yox olubdur cismi-zarım.
Ləbi-ləlin qəmindən çeşmi-xunbar
Tökər hər ləhzə yüz min dürri-şəhvar.
Qədin fikri ilə, ey sərvqamət,
Olur hər gün mənimçün min qiyamət.
Dəxi əl çək cəfadən, ey sitəmkər--
Ki, etməz bu cəfanı hiç kafər.
Xüsusən mən kimi qəmdidə yarə,
Siyəhbəxtü pərişanruzigarə--
Ki, eşqində çəkib yüz min bəlalər,
Görüb zülfündən artıqraq xətalər.
Olub hicrində, ey sərvi-rəvanım,
Dəmadəm bu qəzəl virdi-zəbanım:
Əla, ey mahru, ey mahparə
Qəmindən oldu könlüm parə-parə..
Nədir, ey bivəfa kim, axır etdin,
Bu qədri cövrlər mən dilfikarə?!
Rəqibə eyləyib min lütf, etdin

Məni bəzmi-vüsalından kənarə.
İlahi, varmı aləmdə mənim tək
Pərişan ruzigarü bəxti qarə?
Gülündən fəsli-gülşən ayrı düşmüş
Mənim tək söyləyin hansı həzarə?!
Əzəldən olmayeydim kaş aşiq,
Sənin tək bivəfa, birəhm yarə!
Əzəldən kaş kim, zali-zəmanə
Gətirmeydi məni-zarı cahanə.
Dəxi inni oleydi həft aba
Kim, etdi mən təki əfkarı peyda.
Olaydı çar madər kaş aqir--
Ki, etmeydi mənim tək zarı zahir..
Əzəldən olmayeydi kaş aləm,
Vücudə gəlməyəydi nəsli-Adəm.
Dəxi həm hüsni-surət olmayeydi,
Və ya eşqü məhəbbət olmayeydi--
Ki, sevdim sən təki bimehr yarı,
Sitəmkər, kinəpərvər, zülmkarı.
Bəsi eşqində çəkdim cövrü möhnət,
Nə möhnət, səd həzaran dərdü xiffət.
Vəli axırda etdin bivəfalıq--
Ki, saldın arəyə tərhi-cüdalıq.
Sitəmlə eylədin, ey mahparə,
Məni bəzml-vüsalından kənarə.
Vəli ümmidim oldur çərxi-kərdan,
Həmişə eyləməz bir gunə dövran.
Olur axır tamam əyyami-hicran,
Gəlir ortayə [vəsl], ey rahəti-can.
Keçən möhnətləri hicrində bir-bir.
Edərəm xidmətində cümlə-təqrir.
Körərsən Zöviyi rəncurü müztər
Nələr hicrində çəkmiş, ey sitəmkər.

## SAQİNAMƏ

Saqi, gətir ol şərabi-nabi
Kim, yetdi nisabə qəm hesabi.
Bir cam ilə dəfi-dərdü qəm qıl!
Tədbiri-xumarım et, kərəm qıl!
Ver cami-şərabi-ər-ğəvani,
Məst et məni-zarü binəvani.
Gərçi qəmü-dərd xeyli çoxdur,
Səndən özgə müin yoxdur.
Ta bir dəm olub bəladən azad,
Hicranın əlindən eyləyim dad.
Məstanə deyim o mahruyə,
Ol kinəşiarü tündxuyə
Kim, ey büti-bivəfavü bədxu,
Ayinəüzarü ənbərinmu,
Ol gün ki əsiri-xalın oldum,
Zülfün təki paymalın oldum.
Oldum meyi-mehrin ilə sərməst.
Zülfün girehində böylə pabəst.
Eşqində bəlavü qəmdən özgə,
Cövrü ələmü sitəmdən özgə,
Bir ləhzə görəmmədim vüsalın,
Nəzzareyi-gülşəni-cəmalın.
Etdin məni böylə, ey sitəmkar,
Ənduhü fəraqına giriftar.
Gahi mənə etdin, ey pərizad,
Hicrinlə həzar gunə bidad.
Gətdin gəhi tazədən bir ayin,
Tutdun məni-zar ilə əbəs kin.
Az eylə cəfa məni-fikarə,
Mən xəstəvü zarü biqərarə.
Kim möhnəti-hicrin, ey sitəmkar,
Eylibdi tənim zibəs ki əfkar!.
Rəhm eylər [i] görsə, ey sitəmkər
Mən zarı bu hal içində kafər.
Ey dilbəri-mahruyi-ziyba!
Vey gülrüxü sərvqəddü rəna!
Fikri-xəmi-zülfün ilə hər dəm

Ey sərv, qədim olubdurur xəm.
Ağzın qəmi ilə, ey nigarım,
Yeksər yox olubdu cümlə varım.
Ləlin həvəsilə çeşmi-xunbar
Yüz min dür edər dəmadəm iysar.
Yad eyləyəcək könül çəkər ah,
Vəslində keçən zamanı, ey mah
Qurbanın olum, cəfadən əl çək!
Bu bihədə müddəadən əl çək!
Əğyar nəsihətini tutma!
«Ayini-qədimini unutma».
Tərk etmə, gülüm, rəhi-vəfanı,
Bir yad elə mən çəkən cəfanı.
Artanda bəlavü dərdim, ey dust,
Daim bu qəzəldi virdim, ey dust:

## QƏZƏLLƏR

Məni ayırdı gərdun cövr ilə, ey məhliqa, səndən,
Məgər rəşk etdi kim, gördüm bəsi cövrü cəfa səndən?
Nəsibim oldu eşqində bəlavü möhnətü ənduh,
Cəfadən qeyri-bir şey görmədim, ey bivəfa, səndən.
Mənim tək xar olasan hər iki aləmdə, ey zalim,
Necə mən olmuşam aləmdə xarü binəva səndən!
Nə naləm taleimdəndir, nə bu gərduni-kəcrovdan,
Nə dərdü [qəm] yetişdi, yetdi billahi mana səndən.
Vüsalın gər müyəssər bir də olsa Zöviyi məhcur,
Əgər öldürsən, ey məh, çəkməz əl, olmaz cüda sənsən.

Məcnun oluram ol büti məhkeypəri görcək
Əlbəttə ki məcnun olu mərdüm pəri görcək
Bilməm ki, mənə naz elə]ir, ya ki sitəmdir,
Qafil ki ötər yar məni-müztəri görcək

Hər ləhzə ki görsəm, dilərəm lə lüvü öpmək,
Tuti nə təhəmmül eləsin şəkkəri körçək.
Od tutdu könül zülfüvü ruyündə görəndə
Ol növki be tülləh ara kafəri görcək.
Qurbanın olum, gəl bu qədər etmə təğafül,
Qurbanın olan Zöviyi-qəmpərvəri görcək.

Qoymuşdu gər fələk məni həsrət cəmalına,
Səd şükr, aqibət ki yetişdim vüsalına.
Hicri-rüxündə giryə ilə kur olan gözüm
Baxdı doyunca arizi-fərxəndəfalına.
Artar könüldə şövqi-təmaşayi-arizin,
Baxdıqca həsrət ilə sənin xəttü xalına.
Qəm çəkmə, ey könül, dəxi eyşü nişat qıl--
Kim, oldu çarə möhnətü dərdü məlalına.
Qorxum budur ki, rəşk edə bu çərxi-kəcmədar,
Həsrət qoya genə məni, ey gül, cəmalına.
Lütf etmə qeyrə, öldürü rəşk, ey pəri, məni,
Düşmə dəxi amandı, əzəlki xisalına.
Bil vəsli-yar qədrini, gəlməzmi, Zöviya,
Hicrində çəkdiyim qəmü möhnət xəyalına?

Gözlərim bəs ki tökər hicrin ilə qan, sənsiz.
Qandan axır salacaq aləmə tufan sənsiz.
Xari-matəmgədədir çeşmimə, billah əgər,
Eyləsəm kəşti-gülü seyri-gülüstan sənsiz.
Qıl tərəhhüm, elə bir tiğ ilə sədparə məni,
Nəyə lazımdı sərü cismü dilü can sənsiz.
Gəlməyir çeşminə xəlqin gecələr hiç yuxu,
Bəs ki ey məh, qılıram naləvü əfqan sənsiz.
Gər yolun düşsə səba, Ağdaşa, məndən sölə kim,
Verdi can möhnət ilə Zöviyi-nalan sənsiz.

Nə saqiyü nə ləbi-ləlfamə müştaqəm,
Nə rahi-ruhfəzayə, nə camə müştaqəm.
Bəsani-zəhr məzaqımda təlxdir şəkkər,
Zibəs ki ol məhi-şirinkəlamə müştaqəm.
Əzəldə istər idim vəslüvü, vəli hala
Nəvidi-qətl verən bir pəyamə müştaqəm.

Nə sərvə meyl edərəm, nə sənubərə kim, mən
O qədr ol büti-tubaqiyamə müştaqəm.
O şəms vəsli deyil arizu mənə, Zövi,
Dilindən ol sənəmin bir səlamə müştaqəm.
Nə saqiyü nə ləbi-ləlfamə müştaqəm,
Nə rahi-ruhfəzayə, nə camə müştaqəm.
Bəsani-zəhr məzaqımda təlxdir şəkkər,
Zibəs ki ol məhi-şirinkəlamə müştaqəm.

Nə yetsəm vəslə aramım, nə hicrində qərarım var.
Xudavənda, nə bəd övqatü müşkül ruzgarım var.
Olub aşiq, cahanda hər kəs öz məşuqəsin tapdı,
Mənəm kim, hər zaman firqətdə min-min ahu zarım var,
Nə qəflətdir bu səndə, ey təqafülpişə səyyadım,
Deməzsən kim, mənim damımda axır bir şikarım var.
Mənə əğyar oldu hərfi-əğyar ilə yar axır,
Görün əğyarə bunca yar olan bir gülüzarım var.
Demə naseh ki eşqi-mahrulərdən çək əl, Zövi--
Kim, ondan çəkməzəm əl, ta əlimdə ixtiyarım var.

Binayi-dustluğum tutmamış nigarım ilə,
Pozub xərab elədim çeşmi-əşkbarım ilə.
Nə vəslə təşnəsən, ey dil, usan, deyil mümkün
Onun vüsalı bu bəxti-siyahkarım ilə.
Əcəbdi çərx yanıb, həm kəvakib olsa [kəbab],
Üzün qəmində sənin ahi-pürşərarım ilə.
Qəmi-fəraqı ilə imdi böylə olmazdım,
Qoyaydı gər məni könlüm öz ixtiyarım ilə.
Dedim ki, Zöviyə lütf et, dedi: zəhi xiclət.
Hənuz zindədir ol hicri-canşikarım ilə?!

Etsən də eylə tiri-bəlayə nişan məni,
Salmə nəzərdən, ey büti-namehriban, məni.
Əğyarə iltica edirəm imdi hicrdə,
Salmış nə gunə günlərə gör asiman məni.
Əzbəs ki nalə qıldı fərağında, ey pəri,
Rusvayi-aləm etdi dili-natəvan məni.
Bax, gör, nə növ saldı qara günlərə könül,
Xali-siyahü geysuyi-ənbərfəşan məni.
Zövi qəmi-dəhanı ilə ol sitəmkərin.

Bir gün vücudumu yox edərsən güman mənim.

Etmək dilər cəmaluva nəzzarə afitab,
Oldur ki, mən kimi gəzər avarə, afitab.
İstər öpə o mahvəşin astanəsin,
Bica deyil düşər dərü divarə afitab.
Düşmüş yer üzrə mən təki mədhuşü xaksar,
Aşiqdi sanki ol büti-xunxarə afitab.
Qeyrət odu zəbanə çəkib, yandırır məni--
Kim, hər səhər düşər qədəmi-yarə afitab.
Ol gün ki mahparə nigarım görünməsə,
Olsun ilahi, parə məhü qarə afitab.
Bənzərmi zərrə qədri o məhruyə, Zöviya,
Gər çərx gündə saz edə səd barə afitab.

Gəl ey gözəl, qəmi-eşqinlə zar qoyma məni,
Xəyali-zülfün ilə biqərar qoyma məni.
Ümidi-vədeyi-qətlində qanə döndü cigər,
Amandı, qanımı tök, intizar qoyma məni.
Şəbi-fəraqdə yarın xəyali-çeşmi ilə
Həlak eylədi, saqi, xumar qoyma məni.
Fərağəti-tənü can məstlikdədir, saqi,
Gözün fədası olum, huşiyar qoyma məni!
Cəfadən əl götü, rəhm eylə Zöviyi-zarə,
Şikəsteyi-ələmi-ruzigar qoyma məni.

Dideyi-aləmdə gərçi xar oldum yar üçün,
Aqibət düşdüm gözündən xatiri-əğyar üçün.
Çəkməzəm əl səndən, ey gül, qeyrlər zülfün görüb,
Əndəlib eylərmi gül tərkin cəfayi-xar üçün?
Batdı yüz min xari-möhnət naxuni-ümmidimə,
Gərçi yüz min cövr çəkdim ol güli-gülzar üçün.
Çəkdi xəncər naz ilə, öldürmədi səd heyf kim,
Qıymadı bir qətrə suyə bu dili-əfkar üçün...

Badəxarə eləyir gərçi məzəmmət zahid,
Çəkər axır özü bu işdə nədamət zahid.
Özü qafildi məgər ayeyi-«La yəğtib»[1]dən
Kim, edər gündə həzar adəmə qeybət, zahid.

Fəxr qılma, oxu bir ayeyi-möhtali-fəxur,
Sureyi-hudə baxıb, eylə bir ibrət, zahid.
Gər ədalətlə olur həşr günündə divan,
Sən də, mən də çəkərik onda əziyyət, zahid.
Məndə vardır əgər aşiq oluban, mey içmək,
Səndə var, bir qulaq as, gör neçə adət, zahid.
Kibrü qeybət, qəzəbü zərqü riyavü salus,
Eyləmək görmədiyi əmrə şəhadət, zahid.
Badəyə qeybətü məğrurluğu tay tutaq,
Qeybətin nəhyinə var çün neçə ayət, zahid.
Badənin nəhyinə bir «fəctənibu» [2] ləfzi gəlib,
İmdi çək eylədiyin felə xəcalət, zahid.
Sən edən fisqlərin yoxdu sənə mənfəəti,
Meydə var zövqü fərəh, işrətü ləzzət, zahid.
Hurü cənnətdi sənin sövmü səlatında qərəz,
Fikr qıl nəqsüvədir böylə ibadət, zahid.
Bu əməllər ki, sənin [var], nə deyim tulü diraz,
Fərz olubdur sənə şeytan kimi lənət, zahid.
Çünki hər şəxsə deyirsən: «ənə xeyrün minhü» [3]
Bu sənin şəninə sığmaz, bu nə hacət, zahid.
Bircə kəlmə degilən ki, «ənə rəbbül-əla» [4]
Bu əvam taifə eylərlər itaət, zahid.
Həşrədək gər söləyim hiç tükənməz «vəsfin»,
Dəxi mundan belə göstərmə kəramət, zahid.
Zöviya, «İnni ğəfur[5] ayəsində bağla ümid,
Etməsin qoy sənə məhşərdə şəfaət, zahid.

[İstinad1: Quranda «bir-birinizin qeybətini etməyin» ayəsinə işarədir. Red. ]
[İstinad 2: Şərabdan çəkinin! (ayə). ]
[İstinad 3: Mən ondan yaxşıyam. ]
[İstinad 4: Mən uca olan allaham]
[İstinad 5: Mən bağışlayanam. ]

## ASİ QARABAĞİ

Abdulla bəy xələfi-Əli bəy Asi təxəllüs Qarabağın nücəbalərindəndir. Bu tərcibənd ondandır ki, səbt oldu:

## TƏRCİBƏND

Saqiya, ey büti-məhpeykərü xurşidcəmal
Ələ al badeyi-gülgünqədəhin mala-mal.
Dur ayağa, tök əyağ içrə meyi-səhbanı--
Ki, ayaqdan salısan könlümü etsən ehmal.
Ol şərabi ki onun «şin»i şəkərdir, «rey»i ruh,
Əlifi «abi-bəqa», «ba»dən ibarətdir bal.
Çünki bu bir belə mövsümdü ki, şahənşəhi-gül.
Təxti-gülşəndə hökumətlə tutub istiqlal.
Səf çəkib cümlə müqabildə cüyuşi-səbzə,
Sərv qaldırdı çəməndə ələmi-meymunfal[1].
Etdi məqhur çəmən ləşkərini şahi-bəhar,
Çərxəçivar girib ərsəgəhə badi-şimal.
Bijəni-ordubehişt eylədi fərvərdinə zur.
Qəleyi-gülşənə Kavusi-səbadır kütval. [2].
Nə rəva bir belə mövsümdə könül kişvərini
Edə məftuhü müsəxxər sipəhi-dərdü məlal.
Ləblərin hicri qılıb qönçə kimi bağrımı qan.
Kəsrəti-naləvü əfqan eləmiş cismimi nal.

Yüz qoyub üstümə dərdü qəmü ənduhü xəyal,
Rahi-reyhan qədəhin dövrə gətir dər həmə hal.

Əfsəri-qönçə qoyub başə şəhi-fərvərdin,
Paytəxtində qərar etdi vəziri-nəsrin.
Rəxşi-piləfgəni-şax üstə çıxıb Rüstəmi-gül
Rüx tutub Bəhməni mat etməyə sürdü fərzin
Bərgi-biyd eyləyib amadə xədəngi-dilduz
Saldı min şur həsari-çəmənə muyəgünan.
Vurmağa çeşmi-Sifəndarımıza qıldı kəmin.
Qönçə Söhrabını ehya edib əbri-niysan
Nuşdaru eləyib kamına şəbnəm təyin.
Dəji-gülzarə qədəm basdı genə Kivi-səba
Tapdı Keyxosrovi-gül bağdə izzü təmkin.
Laləni xuni-Siyavuşə məgər bənzətmiş

Ki, Firəngiz-sifət bülbül olubdur qəmgin?!
Saz edib suzü güdaz ilə nəvahayi-həzin
Saqiya, bir belə mövsümdə tutub cami-səbuh,
Meyi-təlx ilə məzaqım nola qılsan şirin.
Açılıb nərgisi-şəhla bu zaman, görmə rəva,
Çeşmi-bimarın edə könlümü bimarü qəmin.

Qoyma həsrət məni-biçarəni. qıl ərzi-cəmal,
Bir əyağ ilə dili-zarımı bir dəm ələ al!

Şur qanunun edib bağdə bülbül ağaz,
Yetirib çərx həsarinə humayun avaz.
Qümri-ahəng qılıb zəmzəmeyi-şəhraşub,
Zirü bəm pərdeyi-ku-kudə əcəb qılmış saz.,
Ləhni-Firuz çəkib rast simai-şəmsə,
Dili-üşşaqə nəvabirlə salıb suzü güdaz.
Çəngi-şaxə çəkilib türreyi-sünbüldən tar,
Sövti-dilkəşlə dolub mülki-Nişaburü hicaz.
Keçdi ol vəqt ki bənzərdi zəminxarayə,
Rahül-ərvah ilə badi-səhər olmuş dəmsaz.
Öz nigarilə gülüstanda büzürgü kuçik,
Eyləyir hər biri bir guşədə min razü niyaz,
Belə novruz zamanı nola dil neyrizin,
Edib abad, mənə etməyəsən, ey şəh, naz.
Çünki mahmudsifət eylədi divanə məni.
Bir pəri silsileyi-zülfü salıb misli-Əyaz,
Unudub mehri, müxalif sözünə tutmuş guş,
Tar tək dışra salıb pərdeyi-xəlvətdən raz.
Çəkərəm şurü nəva hicri-rüxündə məhü sal,
Tükənib səbrü təvan, yox dəxi ümmidi-vüsal.
Mehr salmaz mənə bir zərrəcə ol bədri-tamam,
Hicri-ruyində olub zülfü kimi sübhüm şam.
Simi-əşkim eləmiş çöhreyi-zərd üzrə rəvan,
Qüssədən ol büti-zərrinkəmərü siməndam.
Olmayıb dil, qoyalı kami-rəhi-eşqinə,
Şərbəti-ləli-ləbi zövqü ilə şirinkam.
Uydum ahulərə eşqində misali-Məcnun,
Eyləyib rəm, mənə ol vəhşi qəzal olmadı ram.
Çar sudən qoyub üz üstümə ənduhü mihən,
Möhnətü dərdü bəlavü qəmü rəncü alam.

Zülfü sevdası ilə ömr yetib payanə,
Bulmadım çünki şəbi-hicrinə, saqi, əncam.
Çarə oldur ki, genə ləli-ləbi yadı ilə
Badeyi-nab ilə ləbriz edəsən zərrin cam.
Badə tök sağərə tök, qanıdır, ey şux, həlal,
Söyləsə zahidi-xüdbin meyi-gülguni həram.
Rahi-reyhan ilə qıl öylə məni bixüd kim,
Məstü mədhuş qılam bir də qiyamətdə qiyam.

Belə məxmurluğum baisin, ey nisxisal,
Hazıram eyləməyə rəddi-cəvab, olsa sual.

Ərz qıllam o zaman key-səmədü həyyi-qədir,
Yoxdu bu Asiyi-miskində bu iştə təqsir.
Əvvəli-maxələqallah yazıb eşq hüsnün,
Bu cahanı qələmi-süni edən dəm təhrir.
Şahi-hüsn oldu cahan içrə çü məbsutül-yəd,
Ləşkəri-möhnətü ənduhə qılıb eşqi əmir.
Eşq-xuni, səfi-mügani-siyəh bipayan,
Neyləsin bunlara bir əql, nə etsin tədbir.
Günbəgün ləşkəri-hüsn oldu qəvi, əql zəif,
Qıldı dil kişvərini eşqi-cəfacu təsxir.
Eşq ƏMİRİNƏ çəkib tirü kəman çeşmi-xumar,
Qıldı səyyadsifət səbr ğəzalın nəxcir.
Əqli məhbus qılıb cahi-zənəxdan içrə,
Eylədi silsileyi-zülfdə tədbiri əsir.
Əqlsiz cisimdən, ey vahidi-yekta, nə gəlir,
Zülmət olmazmı cahan olmasa gər mehri-münir?!.

Nə bilir aşiqi-şurideyi-biəqlü kəmal--
Ki, nədir baisi-rəhmət, necədir xovfi-zilal?!

[istinad1: Meymun farsca mübarək, uğurlu deməkdir].
[istinad 2: Kütval--Qala gözətçisi.].

kəmini

Olubdur sən kimi xunxarə ta kim, mübtəla könlüm,
Nələr gör kim, çəkər bir hiçrdə bu binəva könlüm.

## Qəmi

Ağdaş mahalının Qəzi qəryəsindən olub hicri tarixin
1286-cı sənəsində xitteyi-Şirvanda
məscidi camedə kəsbi-ülumi-ərəbiyyəyə
məşğul olmuşdur.

Bu bir neçə şer onun divanından təhrir olundu;

Tiri-qəmzən mərhəmin dün vədə etmişdin, vəli
Vədə keçdi, bilmədim bir vəchi-təxirin sənin.

Ey könül, tutdu Məsiha damənin əflakdə,
Yarına yetməzməgər bu ahi-şəbkirin sənin?!

Ləzzəti-şükrün əda qılmaz qiyami-həşrədək,
Kimsə kim, bir-zəxm urubdur anə şəmşirin sənin

## FƏRD

Əla, ey cənnəti-meyxanənin vəslin bulan saqi,
Gətir yadə cəhimi-firqətində yanmış əshabi.

FÜRURİ

Əli heydər ibn-Xudaverdi Şamaxiyyül-əsil.
Kərrat və mərrat məclisi-şüəradə şerləri
təqrir olub, mövridi-təhsin olmuşdur.
Və bəndə ilə kəmali-sədaqətləri vardır.
Həmin il ki 1291-ci sənədir, əvaili-
rəcəbdə qəleyi-Şurədə mülaqatlarıittifaq
 düşüb, divani-şerləri məlhuzi-nəzər olduqda
mülahizə olundu ki, qa-biliyyəti
-ziyadə peyda edibdir. Və bu fərdi ondan
səbt eylədim

Ya rəb, olumu hicr [in] əlindən qutaram mən?
Bu qürbət elindən vətənim sarı varam mən.

Bir şeləvər od içrə məni saldı zəmanə,
Su səpdikcə dəmbədəm artıq yanaram mən.

MƏSRUR

Bu şərhi-qəmfəzanı ki gün-gün füzun olur,
Yazmaq şüar qılsa, qələm vajigun olur.
Üz lövhi üzrə yazmağa müjgani-xət fəraq,
Hər bir gözüm məsabeyi-dəryayi-xun olur.
Hicran qəmilə matəmə batdım, budur dəlil,
Bəxtim nişanəsilə xətim niyligun olur.
Bari-sitəm əyibdi nihali-vücudimi,

Ari, çox olsa meyvə budaq vajigun olur.
Bilməm nə sirrdir bu ki sevdayi-kakilin
Gəldikdə yadıma könülüm bisükun olur.
Məsrur, bəsdi, çox da könül vermə eşqə kim,
Hər kim bu yolda sürət edər, tez zəbun olur.

Əşki-xunin eyləyiblər damənim gülşən kimi,
Kimdürür bir sakini-gülzari-işrət mən kimi?
Can təmaşayi-kəmali-hüsni-canan qılmağa,
Sinədən açmış cərahətlər ağız rövzən kimi.
Dürri-əşk etsən nisari-məqdəmin, olmaz əcəb,
Ləli xunab ilə məmludur gözüm mədən kimi.
Karivani-əqlü din rahi-tələb tey qılmadan,
Eylədi qarət hərami gözlərin rəhzən kimi.
Şahidi-dünyayə rəğbət qılma kim, bu zali-pir.
Müntəzirdir fürsəti-bidad üçün, Bəhmən kimi.
Eyləməz, Məsrur, zahid fəhmi-razi-rəmzi-eşq,
Görmədim bir annamaz dünyada bu gövdən kimi.

Ləbi-canana desəm qönçeyi-xəndan, yaraşır,
Mətləi-arizinə mehri-dirəxşan, yaraşır,
Qamətin surəti çeşmimdə qılar cilvə müdam,
Cu kənarında, gözüm, sərvi-xuraman yaraşır.
Yaraşır tərfi-üzarında xəti-müşkinin,
Necə ki gülşən ara sünbülü reyhan yaraşır.
Nərgisi-şuxün edib dəhrdə aşub pədid,
Bu səbəbdən desələr fitneyi-dövran, yaraşır.
Ey gözüm nuru, siyəhpuş neçinsən, de görüm,
Güli-novxizi-çəməntək sənə əlvan yaraşır.
Yusifi-Misridən artıq desələr xəlq səni,
Şahidəm, əşhədi-billah, «kəma kan», yaraşır!
Surəti-hüsn ilə məşhurdur ol laləüzar,
Aşikar eyləmə, Məsrur ki, pünhan yaraşır.

Bəs ki ləlin həsrətindən axıdır qan gözlərim,
Aqibət bir gün qılır dünyanı tufan gözlərim.
Laləzar olmuşdu tərfi-damənim xunabdən,
Damənim gülzardır əbri-baharan gözlərim.
Qalibən bəhreyni-qəmdir iki çeşmim çeşməsi,

Yağdırır neysanə bənzər dürri-qəltan, gözlərim.
Qıldı hicrin bağrımı qan, qılmasaydı kaş ki,
Ruyi-xəndanın tamaşasını giryan gözlərim.

Gecələr, ey mah, sənsiz bəs ki əfğan eylərəm,
Göylərə əncüm şərarın daği-suzan eylərəm.
Lövhi-rüxsarım saralsa yox əcəb kim, mən onu
Xətti-reyhanın həvasilə zərəfşan eylərəm.
Guşeyi-mehrabə çox meyl etmə, zahid kim, qılıb
Vəsfi-əbrusun cahanı kafəristan eylərəm.
Kakilin sövdası ilə olmuşam Məsrur kim,
Onla qəm cəmiyyətin başdan pərişan eylərəm.

## ŞUXİ

Deyildi şiftəlikdən digər nə çarə mənə,
Edərdi nərgisi-məstin müdam işarə mənə,
Səhabi-zülf çü baran əşkimi axıdır,
Tutubdu pərdeyi-zülmat mehr üzarə mənə.
Tapıbdı zülf rəhi-buseyi-ləbü ruyün,
Bir aşinalıq elətdir o bəxtiyarə, mənə.
Şəbi-zülamımı rüxsarın ilə pürnur et,
Tülui-şəms ilə qət eylə intizarə mənə.
Qalıbdı, Şuxiyə tənha, gərəkdir ünsiyyət,
Səzadır etməyə ol piri-dilfikarə mənə.

Hansı bürc isə müqabil rüxi-gülfamə
İctimai-Qəmərü Zöhrövü Bəhramə düşüb,
Əsəri-şəşəeyi-çöhreyi-gülgunundan
Atəşi-şöləfüruzan deyəsən bamə düşüb.
Xəlqdən cəlbi-nəzər eyləyərək bəzm içrə
Çeşmi-fəttanı işarət ilə eyhamə düşüb.
Xəlqə qismət olunub nari-cigərsuzi-fəraq
Bu şikayət Şəkidə Şuxüvü Nakamə düşb,

Könlüm o gün ki tellərinə mübtəla olub,

Hər tari-muyi başıma yüz min bəla olub.
Hər dü qaşın ki çöhreyi-gülgunə baş vurub
Şəmşiri-xunçəkani-şəhi-Mürtəza olub.
Etməzdim ol xəyalı qucar kəs miyanını,
Zərrin kəmər bu işdə əcəb bihəya olub.
Asan göründü, etməz idim hərgiz ixtiyar,
Rahi-güzari-eşq belə pürcəfa olub.
Zövqü səfayi-ruhfəza bil ki Şuxiyə
Şəbhayi-vəslin, ey sənəmi-dilrüba, olub.

Səba, keyfiyyəti-halım vəfasız yarə məlum et.
Rəvan ol kuyinə, məkşuf qıl əhvalı məfhum et.
Pərişan halü tirə ruzigarım çün şəbi-hicran
Bu məzmun üzrə ətvarım ona mərsulü mərsum et.
Dəhani-qönçeyi-sirabdən məfhumi-əsrar et,
Dəhanı tək nümayan olmadan məsturü məktum et.
Əlaci-dil olunmaz şikveyi-hicran ilə Şuxi,
Müsəccəl etmə dərdin, nameyi-əmali-məxtum et.

Səni, ey  dil, təfəhhüm eylədim, viranəsən guya,
Fəraqi-yar ilə bitab olub divanəsən guya.
Xəyali-məşəli-rüxsari-canan ilədir şüğlün,
Təfəkkür didəsilə, ey könül, pərvanəsən guya.
Nə təşvişi-hərarətdir dəruni-dildə sər ta pa,
Qəriqi-atəşi-pürşöleyi-suzanəsən guya,
Nə heyran olmusan bu haləti-firqətdə, ey Şuxi,
Müqabil ol rüxi-məhpeykəri-tabanəsən guya.

Zar könlüm dami-eşqə bir mələksima salıb,
Həlqeyi-zənciri-zülfü başıma sövda salıb.
Dideyi-adəmfiribin eylədikdə bir nəzər,
Mülki-can içrə sərasər qarətü yəğma salıb.
Şöleyi-ruyün düşüb çeşmə, itirmiş rahını,
Xud özün çahi-zənəxdanə dili-şeyda salıb.
Xali-rüxsari-cahantabın görən təsdiq edər
Gülşəni-firdovsə, hindubəççədir, məva salıb
Çini-zülfün Çin dəryasın edib təsxirü bənd,
Kişvəri-hindustanə şurişü qovğa salıb.
Tərki-eşqi-cansitanın Şuxiyə düşvardır,

Sərbəsər səhni-dil üzrə mehri-ruyün ca salıb.

## QƏSİDƏ DƏR MƏDHİ-ŞƏHRİ-NUXU

Biya, ey saqiyi-məhru, nə xudür etmisən peyda
Ki, könlündən şəki rəf et, götür bir sağəri-səhba,
Nuxunun məskəni-şəhri nə əla bir məkan üzrə
Olunmuş vəzi-zibatər təfərrüc mərkəzi-dünya.
Edib məhsur ətrafın cibali-kəhkəşanrüfət,
Misali-qəleyi-əla tərazi-qüdrəti-mövla.
Se rükn üstündə etmişdir müəyyən suyi-qərbindən,,
Açıb afaqə ustadi-əzəl dərvazeyi-Dara.
Təmaşayi-cahanə sər çəkibdir təmtəraq ilə,
Şimali canibindən guhi-Əlbürzi-fələkfərsa.
Sərində taci-simin, padişahanə vüqar ilə
Hüzurunda süfufi-guhlər ləbbəstə, biguya.
Tamaşa eyləsən hər bir bürucatından ətrafə
Olur məddi-nigahında nümayan səfheyi-ğəbra
Müləvvən fərşi-əzhar ilə rəngarəng, minafam,
Müəlla guhü yaylağı şimalü şərqdən bərpa.
Zülali-abi-heyvandan nişanə çeşmələr cari,
Cibalatında əşcarati-ziba qəddi- sərvasa.
Müəyyən seyrgəhlər hər biri namilə şöhrətyab,
Kənari-şəhr ara hər cadə gəh zirü gəhi bala.
Düzübdür dəsti-ustadi-qəza bir büqeyi- rəngin,
Çəkib memari qüdrət bir həsari-xoştərü ziba.
Digər sudən düzülmüş bağhayi-cənnətasalər,
Həmə pürbari-əlvan, meyvəhayi-hamizü əhla.
Bahari-dilgüşası qeyri-mümkün cayi-digərdə,
Bu mənzilgahi-canbəxşin görünməz misli digər ça.
Belə bir mənzili-dilcu, bu gunə məskəni-niku
Həmə yek-digərinə biqərəz məxluqudur əda.
Dü səd heyfa ki, yoxdur əhli-naəhlində bir zərr»
Dəyanətlə və.favü qədrü qiymət, danişi-əşya.

Baxıb zahirlərinə etiqad eylərsən adəmdir,
Dəruni-şeytənətayinləridir bir digər sima.
Bu ətvar ilə əhlinə məratib qeyri-mümkündür,
Onunçun qəsr müddət başə varmaz bunda kəs əsla.
Xudaya, xəlqinə ehsan qıl əhvali-təbi-xoş,
Edib məhfuz ənvai-bəladən cümləsin yekca.
Vilayət içrə asayiş yetirsin bəxt ilə rövnəq,
Verə xəllaqi-aləm nemətü izzətlə istiğna.
Vəfasızlıq cahani-bibəqanın karıdır, Şuxi,
Kəsani-qədrdani az deyildir, eyləmə şəkva.

ASƏF [LƏMBƏRANİ]
Bilmən ki, bədəndir görünür pirəhən içrə,
Ya ruhi-rəvandırmı dolanır bədən içrə?
Müjganların içrə sənin ol çeşmi-xumarın
Bir nərgisi-tərdir ki, bitibdir tikən içrə
Kuyində yüz il zülfə əsir olsam usanman,
Xoşdur mənə əzbəs ki qəra gün vətən içrə.
Bir şeri-nəməkriz ilə ağzından öpərdim,
Pünhan ola bilsəydim əgərçi süxən içrə.
Asəf, güli-rüxsarını görmüşmü nigarın
Qönçə dəhəni açıla qalmış çəmən içrə?

Nəzakət pərdəsindən göstərib yüz hüsn Leyla tək,
Məni aləmdə rüsva eylədi Məcnuni-şeyda tək.
Əgər yüz mürdə ehya oldu ecazi-Məsihadən,
Ləbin ecazdən ehya olubdur yüz Məsiha tək.
Əgər əhli-səfa könlündə ca tutmaq muradındır,
Həmişə sakin ol meyxanələr küncündəsəhba tək
Gözüm sərçeşməsin məsdud qıl bir vəch ilə, Asəf,
Sirişkim qərqi-girdab etməsin aləmni dərya tək.

Mey kim, özün müdam salır cam əyağına,
Düşmək dilər o saqiyi-gülfam əyağına.

Bir zərrə qədr üçün görün ol sərvin afitab
Başına sübhdəm dolanır, şam əyağına
Gəncineyi-gözüm ki tükənməz xəzanədir.
Tökdüm qamun o şuxi-dilaram əyağına.

Ey sənsizin, cahanda mənimçin mədar yox,
Aramü ixtiyarü şəkibü qərar yox.
Can kim, bədəndə bir neçə müddət müqimdir,
Vəslindən özgə bir qərəzi-intizar yox.
Nəqdi-tərəb ki cəmdi vəslində, günbəgün
Sərfi-fəraqın eyləmişəm hər nə var, yox.
Şami-qiyamət oldu mənə sübhi-firqətin,
Vəslindən özgə Asəfə bir şəbgüzar yox.

Əyağə saldı məni, saqiya, qəmi-dövran,
Piyalə tut.ələ, səhbanı kasə-kasə yetir.
Bu nəzmi hər kəsə izhar qılma, ey Asəf,
Apar bu dürrü yenə bir gühərşünasə yetir.

Xəm qəd ilə didə sənsiz əşki-gülgun göstərir,
Gün qürub etgəc, fələk pirahənin xun göstərir.
Eylə mətadəm qədin fikrilə, ey tubaxüram,
Gər nəzər qılsam sınıq divarə mövzun göstərir.

## FƏRD

Tökdükcə əşk, dildə füzun oldu iştiyaq,
Əfsanədir bu kim, yana bilməz çirağі-tər.

Əgər fəryadi şəbgirim yetişmişdir Məsihayə,
Nə sud ondan ki,yləməz ol mahsimayə.

QÜMRİ

Məhəmməd Təqi ibn-İbrahim Dərbəndi bir cavandır ticarətpişə və dəqiqəndişə. Fünuni-şerdə övqatın mərasiyi-İmam Hüseyn əleyhissəlamə və şəbehgərdanlığa sərf edibdir. Neçə dəfə şüərayi-Şirvan ilə müşari-leyhin mabeynlərində rümuzati-nəzmə xürdəgirlik xüsusunda irsal olmuşdur. Axirül-əmr tərəfeyndən həcvlər sadir olmuşdur. Bir qəsidə o cümlədəndir ki, babül əbvab Dərbənddən yazıb şüərayi-ərbəeyi-Şirvanə rəvanə etmişdir. Həmən qəsidədə mövlana cənab Qafil, Bixud, Zövi və bəndeyi-həqiri həcv etmişdi.
Bu bir neçə şer cənab Mirzə Qümrinin «Kənzül -məsaib» nam kitabında olan tərcibəndlərdən intixab olmuşdur. Guya əqlin xitabıdır təbə:

Bu sevdadən keç, ey qafil, dəxi ömri-cavan keçdi,
Şəbab əyyami getdi, zövqü sövdayi-cahan keçdi.

Sərayi-ariyətdə hər gələn beş gün qalır mehman,
Rəfiqü aşina getdi, təmamən həmzəban keçdi.

Bilir bir gün deyər qədrin bilənlər, heyf dünyadə.
Qoyub nəzmi-dürəfşan Qümriyi-şirinzəban keçdi.

Eşitcək bu sözü təbim həzarı dilkəbab oldu,
Açıb dürci-dəhanın əql ilən hazırcavab oldu:

Məgər divanədir üşşaq eşqi-yardən keçsin,
Həvayi-vəslü sevdayi-rüxi-dildardən keçsin?

Rəvadır təşneyi-cami-məhəbbət meydən əl çəksin!
Qoyub zövqü səfanı badeyi-gülnardən keçsin?!

Olanda fəsli-gül, tər qönçənin arayiş əyyamı,
Qoyarmı eşq şeyda bülbülü gülzardən keçsin?

Keçər nazü nəimi-cavidandan aşiqi-sadiq,
Və lakin müşkül işdir ləzzəti-didardən keçsin.

Olar keçmək Bədəxşan ləlinin alafi-əlfindən,
Çətindir aşiqə ləli-ləbi-dildardən keçsin.

Olub Qumridən ötrü rişteyi-can keysuyi-canan,
Məgər candan keçib, ol türreyi-tərrardən keçsin?!

## HÜSEYNƏLİ XAN MƏHZUN DƏRBƏNDİ

Gözüm yaşını billəm kim, yıxar könlüm evin axir,
Olur əlbəttə viran, olsa hər mənzil su oynağı.

Nə qəm dustaq olam mən, şir üçün zəncir eyb olmaz,
Qəfəsdə bülbülü tutini saxlarlar, nə kim, zağı.